Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

9 APREL 2020-ci il

№ 53 (4184)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN AZƏRBAYCANA SU-30 VƏ MİQ-35 SATMAQ İSTƏYƏN RUSİYANI ŞANTAJA BAŞLADI...

səh. 6

Azərbaycandan Ermənistanı lərzəyə salacaq növbəti hərbi gediş... səh. 9

Koronavirusla mübarizədə Azərbaycanın dünyada öncül rolunu təmin edən daha bir fakt... səh. 5

Koronavirus dinamikası artır, yoluxma və ölü sayı - daha sərt tədbirlər qaçılmaz ola bilər... səh. 5

Pandemiyanın Azərbaycana iqtisadi təsiri minimuma endirilir - sosial istiqamətə ayrılan vəsaitlərdə ləngimə və təxirəsalmalar olmayacaq səh. 7

Neft üzərində yeni böyük oyunun şok detalları açıldı - 9 aprel görüşü gündəmdə... səh. 8

Fərdi sahibkarlar üçün DSMF ödənişləri necə sadələşdiriləcək - Koronavirusla mübarizənin daha bir mütərəqqi sosial təzahürü... səh. 10

Sosial şəbəkələrdə insanları ruhdan salan neqativ video-audio materiallar paylaşılır - xoş olmayan qara niyyətlər... səh. 15

Koronavirusun yeni yayılma mənbələri üzə çıxır - küçə-baca atılmış maska və əlcəklərlə doludur səh. 14




səh. 3

## Operativ Qərargahdan cəmiyyətə son xəbərdarlıq - vəziyyət ağırlaşır, qadağalara əməl olunmasa...

*Azərbaycanda daha 105 nəfərdə virus aşkarlanıb, 19 nəfər sağalıb*



## Əfv olunaraq karantinə alınan yaşlı dustaqlar ətrafında da siyasi oyunlar var - Nazirliyin izahı...

səh. 4

## Camaat yetərli məsuliyyət göstərsə - Azərbaycanda məxsusi koronavirusa qarşı daha 6 xəstəxana tikintisi başlayır...

səh. 2




## Əmək müqaviləsi olmadan işləyənlərə dövlət dəstəyi kimi çətin problem gündəmdə - Nazirlik nə edəcək...

səh. 10

səh. 4

### 65-dən yuxarı yaşlı dustaqların əfvini siyasiləşdirmək kimlərin işinə yarayır...



səh. 11

### İndiki ağır günlərdə işsizlər də dövlət dəstəyindən kənarda qalmadı - 190 manat yardım...



səh. 13

### İsmayıllıda da 15 min maska buraxan fabrik açıldı, Bakı Tikiş Fabriki də əlavə olunsa - apteklərdə niyə qıtlıqdır...



səh. 11

### Əlillik dərəcələrinin bir ay uzadılması nə qədər insanı əhatə edəcək...



səh. 14

### Koronavirusla mübarizə dövründə fiziki şəxslərin öz etdikləri yardımları geniş reklam etməsi doğrudurmu...





# Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin səlahiyyətləri artırıldı

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi haqqında Əsasnaməsində dəyişiklik edilməsi haqqında fərman imzalayıb.**

"Trend"in məlumatına görə, fərmanla Agentliyin vəzifələrində dəyişiklik olunub.

Dəyişikliyə əsasən, Agentliyə nüvə və radiasiya təhlükəsizliyi məsələləri üzrə tikinti norma və qaydalarını, habelə təlimatları, metodiki və digər sənədləri hazırlamaq səlahiyyəti verilir, eyni zamanda qurum bu sahədə dövlət standartlarının, əməyin mühafizəsi qaydalarının hazırlanmasında iştirak edəcək.

Bundan başqa, Agentlik nüvə, radioaktiv maddə və ionlaşdırıcı şüa mənbələrindən istifadə ilə əlaqədar fəaliyyət göstərən müəssisə və təşkilatlarda, habelə radiasiya nəzarəti aparılan ərazilərdə radiasiya təhlükəsizliyinin təmin edilməsi tədbirlərini həyata keçirmək, onların səmərəliliyinin qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətləndirilməsi (sahibkarlara münasibətdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla) işini aparacaq.

Həmçinin Agentlik öz səlahiyyətləri daxilində ölkədə fövqəladə vəziyyətin qüvvədə olduğu müddət ərzində onun tətbiq edildiyi ərazidə radioaktiv məhsulları istehsal və istifadə edən təşkilat və müəssisələrin fəaliyyətinin "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə" müəyyən edilmiş qaydada tam və ya qismən dayandırılması barədə qərar qəbul edəcək.



# İran Heydər Əliyev Mərkəzinin koronavirusla mübarizədə dəstəyini yüksək qiymətləndirdi

**İran Heydər Əliyev Mərkəzinin bu ölkəyə koronavirusla mübarizədə göstərdiyi dəstəyini yüksək qiymətləndirib. "Trend"in məlumatına görə, bu barədə İranın Azərbaycandakı səfirliyinin "Twitter" səhifəsində deyilir.**

Məlumatda deyilir ki, İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə Azərbaycan hökumətinin iranlılarla həmrəylik nümayiş etdirməsini yüksək qiymətləndirib.

Qeyd edək ki, aprelin 7-də Heydər Əliyev Mərkəzinin binası üzərində İran İslam Respublikasının bayrağı videoproyeksiya olunub.

"COVID-19" pandemiyasının yayılmasına qarşı Azərbaycanın beynəlxalq ictimaiyyətlə həmrəyliyinin ifadəsi olaraq virusdan zərər çəkən dövlətlərin bayrağı həmin ölkənin musiqisinin müşayiəti ilə dünya memarlıq incilərindən olan Heydər Əliyev Mərkəzinin binası üzərində nümayiş etdirilir. Ölkələrin adının ingilis dilindəki əlifba ardıcıllığına uyğun olaraq hər gün bir dövlətin bayrağı bina üzərində təqdim olunur.

Bununla Heydər Əliyev Mərkəzi "COVID-19"un geniş yayıldığı dövlətlərə və onların xalqlarına dəstəyini, hörmət və ehtiramını ifadə edir.

# Camaat yetərli məsuliyyət göstərsə - Azərbaycanda məxsusi koronavirusa qarşı daha 6 xəstəxana tikintisi başlayır...

## *Leyla İbrahimova: "Pandemiya ilə mübarizədə öz töhfəsini verə biləcək addımdır"*

**Koronavirusla mübarizədə Azərbaycan dünyaya sözün əsl mənasında əsl örnək göstərir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19-un yayılmasının qarşısını almaq istiqamətində Azərbaycan hökumətinin səylərini təqdir edir və xüsusi karantin rejiminin tətbiqi barədə onun çağırış və addımlarını dəstəkləyir.**



Bununla bərabər, Azərbaycan hökumətinin qlobal səviyyədə keçirilən tədbirlərə töhfəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon ABŞ dolları həcmində dəstəyi də xüsusilə qeyd edilir.

Əlbəttə ki, gündəmdəki əsas məsələ ölkə daxilində pandemiya ilə mübarizədir. Evdə qalmaq, sosial məsafəni qorumaq, tez-tez əlləri yumaqla gigiyena qaydalarına riayət etmək, eləcə də hərarət və uzun müddət davam edən quru öskürək də daxil olmaqla qripə bənzər simptomlar olduğu təqdirdə 103/113 qaynar xəttinə məlumat verməklə özümüzü, ailələrimizi və ölkəni qorumaq üçün atmalı olduğumuz zəruri addımlardır. Əhaliyə sosial-iqtisadi təsirini azaltmaq məqsədilə 2,5 milyard manat həcmində maliyyə vəsaitinin ayırması da beynəlxalq qurumlar tərəfindən alqışlanır. Xatırladaq ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi çərçivəsində ölkədə hərəkət məhdudiyyətləri müəyyən olunub. Əhalinin həyat və sağlamlığının qorunmasını, dövlət qurumlarının və həyat təminatı obyektlərinin fasiləsiz işini, habelə yaranmış vəziyyətdə iqtisadi subyektlərin zəruri həddə fəaliyyətini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah ölkədə hərəkət məhdudiyyətlərinin 5 aprel 2020-ci il saat 00:00-dan 20 aprel 2020-ci il saat 00:00-dək xüsusi qaydada tətbiqi ilə bağlı qərar verib. Çox yüksək yayılma sürətinə sahib olan koronavirus kimi bir qlobal epidemiya dünyanı daha ciddi problemlə qarşı-qarşıya gətirə bilər. Bunun üçün də, dövlətlə yanaşı, biz vətəndaşlar da məsuliyyətli olmalıyıq. Ötən gün Prezident İlham Əliyev koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir:"Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə qərara alıram: 1. Hər birində 200 çarpayı olan modul tipli 6 (altı) xəstəxananın quraşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.66-cı bəndində göstərilmiş məbləğin 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə ayrılsın. 2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin".

Göründüyü kimi, Azərbaycan hakimiyyəti bütün istiqamətlər üzrə pandemiya ilə mübarizə sahəsində lazımi tədbirlər görür. Azərbaycan qlobal koronovirusa qarşı sistemli mübarizə aparan öncül ölkələr sırasındadır və bu tədbirlər bu gün bütün dövlət qurumları tərəfindən lazımi səviyyədə həyata keçirilir.

Həkim, tibb üzrə fəlsəfə doktoru Leyla İbrahimova "Bakı-Xəbər"ə bildirdi ki, heç bir ölkə bizim qədər qabaqlayıcı tədbirlər görməyib:"Amma bəzi insanlar dövlətin qoyduğu qadağalara əməl etmək istəmir. Başa düşmürlər ki, bununla öz sağlamlıqlarını təhlükəyə atırlar. Axı, küçəyə çıxıb virusa yoluxmağa nə lüzum var? Mən insanlara demək istəyirəm ki, bu pandemiyanın mahiyyətini dərk edin və karantin rejiminin tələblərinə əməl edin.

İndi nə tədbirlər həyata keçirilirsə, bunların hamısı sizin sağlamlığınız üçün edilir. Epidemiya sizdən heç nə soruşmur, o, harada oldu sizi yoluxdura bilər. Hazırkı şəraitdə ən gözəl tədbir evləri tərk etməmək, evdə qalmaqdır. Mən bir həkim kimi insanlardan xahiş edirəm ki, heç kim evini tərk etməsin. Göründüyü kimi, ölkə başçısı əlindən gələni edir ki, bu virus vətəndaşlarımız arasında yayılmasın. Elə ölkələr var ki, hətta tibb işçiləri çatışmazlığından əziyyət çəkir. Bizdə belə problem yoxdur. 6 yeni xəstəxananın quraşdırılması ilə bağlı verilən sərəncam isə təqdirəlayiqdir və pandemiya ilə mübarizədə öz töhfəsini verə biləcək addımdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Operativ Qərargahdan cəmiyyətə son xəbərdarlıq - vəziyyət ağırlaşır, qadağalara əməl olunmasa...

*Azərbaycanda daha 105 nəfərdə virus aşkarlanıb, 19 nəfər sağalıb*

**Azərbaycanda 105 yeni koronavirusa yoluxma qeydə alınıb, infeksiyaya yoluxmuş 19 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. "Trend"in məlumatına görə, bu barədə Nazirlər Kabinetinin mətbuat katibi İbrahim Məmmədov Operativ Qərargahın keçirdiyi brifinqdə deyib. İ.Məmmədov deyib ki, Azərbaycanda koronavirusla bağlı pozitiv fikir söyləmək mümkün deyil: "Ötən həftə ərzində xəstəliyin yoluxma halları davam edib. Bu gün ölkədə 105 nəfərin koronavirusa yoluxma faktı halı qeydə alınıb. Bu rəqəm onu göstərir ki, yoluxma halları artan xətt üzrə gedir".**

Mətbuat katibi qeyd edib ki, bu gün ölkədə 5 milyona yaxın tibbi maska ehtiyatı yaradılıb. Gün ərzində aptеklərə 450 minə yaxın tibbi maska verilir, 100 mindən artıq tibbi maska satılır.

Qeyd edək ki, hazırkı dövrədək ölkəmizdə 822 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 63 nəfəri müalicə olunaraq sağalıb, 8 nəfər vəfat edib, 751 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 33 nəfərin vəziyyəti ağır, 47 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

**Maskaların qiyməti artmayacaq**

"Azərbaycanda maska istehsalı artdığı üçün qiymət artımından söhbət gedə bilməz" - deyən İ.Məmmədovun sözlərinə görə, ölkədə maskaya tələbat artıb: "Bazar iqtisadiyyatında tələb təklifi müəyyənləşdirir. Ölkədəki vəziyyət onu göstərir ki, qiymət qalxa bilər. Amma dövlət əlindən gələni edir ki, qiymət qalxmasın. Ona görə də qiymət artımından söhbət gedə bilməz. Bunu tənzimləmək yolu istehsalı artırmaqdır. Üstəgəl, xüsusi karantin rejiminə görə evdə qalmaq tələb olunur. Əgər evdə qalsaq, maska və spirtə tələbat azalır. Tələbat azalarsa, qiymət də artmaz. Dövlət hazırda maska və spirtin qiymətini tənzimləmək üçün əlindən gələni edir".

**Operativ Qərargah hələ ki, fövqəladə vəziyyətə əsas görmür...**

İ.Məmmədov bildirib ki, Azərbaycanda fövqəladə vəziyyət "Fövqəladə hallar haqqında" Qanuna görə tənzimlənir. Onun sözlərinə görə, hələ ki, fövqəladə vəziyyətə əsas yoxdur: "Cənab Prezident ölkə vətəndaşlarının təhlükəsizliyi ilə bağlı lazım olan bütün tədbirləri görəcək. Əgər ehtiyac olarsa, dövlət başçısı bu prosesdə təhlükəsizlik üçün istənilən qərar verə bilər".

**15 min nəfərdən artıq Azərbaycan vətəndaşı ölkəyə gətirilib**

Xaricdə olan azərbaycanlıların gətirilməsi istiqamətində tədbirlər davam etdirilir. Bu günə qədər 15 min nəfərdən artıq Azərbaycan vətəndaşının dövlət hesabına, xüsusi çarter reysləri ilə Azərbaycana gətirilməsi təmin edilib. Bunu isə Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

H.Hacıyev bildirib ki, xaricdən gətirilən Azərbaycan vətəndaşları xüsusi karantində yerləşdirilir: "Xaricdə olan vətəndaşlarımıza da anlayışları üçün təşəkkür edirik. Sərhədlər bağlansa da, müstəsna hallar olur. Son iki gündə Rusiyadan Azərbaycana cənazələrin gətirilməsi halları olub. O insanların yaxınları müraciət edib, humanizm prinsipi əsasında bu məsələ nəzərə alındı".

Prezidentin köməkçisi əlavə edib ki, Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri orada olan azərbaycanlılarla təmasdadırlar: "Zəruri ehtiyacı olan vətəndaşlara diplomatik nümayəndəliklərimiz, tələbələrə münasibətdə isə Təhsil Nazirliyi tərəfindən dəstək verilir".

**ÜST koronavirusla bağlı Azərbaycanda görülən işlərə çox yüksək qiymət verir**

H.Hacıyev bildirib ki, Azərbaycan Respublikasının siyasətində həmişə çoxtərəfli diplomatiya, qlobal həmrəylik və qlobal əməkdaşlıq vacib prinsipal mövqedən ibarət olub. Ona görə də bugünkü qlobal fövqəladə şəraitdə də Azərbaycan öz xarici siyasətinin bu təməl prinsipindən çıxış edərək beynəlxalq münasibətlərdə əməkdaşlığı və həmrəyliyi dəstəkləyir: "Bunun bilavasitə bariz nümunəsi kimi 2 aprel tarixində BMT Baş Assambleyasında koronavirus xəstəliyinə qarşı qlobal həmrəylik adlı qətnamə layihəsi irəli sürülüb. Azərbaycan həmin qətnaməyə həmmüəllif kimi qoşuldu və bu da ölkəmizin beynəlxalq səviyyədə olan səyləri və bu bəlaya qarşı qlobal həmrəyliyə sadiq olduğunun bir daha bariz nümunəsidir".

PA rəsmisi vurğulayıb ki, koronavirus xəstəliyi ilə mübarizədə Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) arasında çox səmərəli əməkdaşlıq mövcuddur və bu əməkdaşlıq bu gün keyfiyyətcə yeni bir müstəviyə qədəm qoyub: "Dövlət başçısı tərəfindən qeyd olunduğu kimi, Azərbaycan tərəfindən ÜST ekspert qrupu dəvət edilib və onlar tərəfindən aidiyyəti dövlət, xüsusən də səhiyyə qurumları ilə birlikdə ətraflı müzakirələr aparılıb və görülən işlərə çox yüksək qiymət verilib".

**Ermənistan indiki dövrdə də öz çirkin siyasi oyunlarını davam etdirir**

H.Hacıyev onu da bildirib ki, bu günlərdə Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz seçkilər keçirildi. Bu qanunsuz seçkilər beynəlxalq ictimaiyyət tərəfindən rədd edildi, Azərbaycanın ərazi bütövlüyü, suverenliyinə beynəlxalq ictimaiyyət tərəfindən dəstək göstərildi və bu "seçkilər"in qanunsuz xarakter daşıdığı və onun tanınmadığı bir daha da vurğulandı.

H.Hacıyev vurğulayıb ki, burada xüsusilə Qoşulmama Hərəkatına üzv ölkələr tərəfindən ifadə olunan mövqeyi qeyd etmək lazımdır: "Yeni 120 dövlət yekdilliklə Azərbaycanın mövqeyini, ərazi bütövlüyünü, suverenliyini dəstəklədi. Ermənistanın və Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin xisləti bir daha ondan xəbər verir ki, bütün dünya koronavirusdan əziyyət çəkdiyi bir halda, onlar öz çirkin siyasi oyunlarını davam etdirdilər".



**Ölkəmizin ərzaq təminatı üçün bütün kompleks tədbirlər görülür**

"Azərbaycan tərəfindən görülən tədbirlər kompleks və qabaqlayıcı xarakter daşıyır. Hətta yanvar ayının erkən dövrlərində şəxsən dövlət başçımızın rəhbərliyi və tapşırığı altında, bütün sahələrdə olduğu kimi, ölkəmizin ərzaq tədarükünün davamlı şəkildə təchiz edilməsi ilə əlaqədar tədbirlər görülüb və zəruri ehtiyatlar təmin olunub". Bunu da H.Hacıyev deyib.

H.Hacıyev vurğulayıb ki, digər ölkələrdə müəyyən panik əhval-ruhiyyənin yaşanması, həmçinin, supermarketlərdə boşluqların olması kimi hallar gördük: "Ancaq Azərbaycanda bu kimi halların heç biri baş vermədi. Bu da zəruri tədarüklərin görülməsinin nəticəsi idi. Həmçinin, idxal-ixrac əməliyyatlarının davamlılığını təmin etmək üçün aidiyyəti tərəfdaşlarımızla əməkdaşlığımız davam edir. Azərbaycan ərazisindən tranzit olmaqla, həmçinin, Azərbaycan idxal məntəqəsi olmaqla bütün beynəlxalq tərəfdaşlarımızla daşımalar həyata keçirilir.

Hətta son 2-3 ayın statistikasına baxsaq, burada əsaslı artım görə bilərik. Məsələn, son 2-3 ay ərzində ölkəmizin ərazisindən 5 mindən artıq yük maşını keçib. Ölkəmizdə ərzaq təchizatı ilə əlaqədar bütün kompleks tədbirlər görülür və qarşıdan gələn dövrlər ərzində də uzunmüddətli əsasda müvafiq müqavilələr bağlanılır".

**Vətəndaşlar karantin qaydalarına əməl etməsələr...**

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı isə deyib ki, hazırda Azərbaycanda koronavirusa yoluxan xəstələrin ümumi sayı 822 nəfərdir. Ümumi sağalmaların sayı 63, ölüm hallarının sayı 8-dir. Onun sözlərinə görə, hazırda aktiv xəstələrin sayı 750 nəfərdir.

R.Bayramlı qeyd edib ki, yoluxma hallarının artması icazə rejimi tətbiq olunmamışdan əvvəl karantin qaydalarına əməl edilməməsinin nəticəsidir. "Əgər vətəndaşlar bu günlərdə karantin qaydalarına əməl etməsələr, biz daha sərt tədbirlərin görülməsi üçün ölkə rəhbərliyinə və Nazirlər Kabineti yanında Operativ Qərargaha müraciət etmək məcburiyyətində qalacağıq" deyən Ramin Bayramlının sözlərinə görə, vətəndaşlar 2-3 həftə səbr etsələr, yoluxma zəncirini qıraraq öz normal həyatlarına dönə biləcəklər: "Bəzən vətəndaşlarımız karantin rejiminə tam əməl etmirlər, onun ciddiliyini anlamırlar. Amma başa düşmək lazımdır ki, karantin qaydalarına əməl edilməsə, süni tənəffüs aparatlarına qoşulan insanların sayı artacaq və onda bizi daha acı nəticələr gözləyir. Çünki bu halda ölüm halları çoxalır".

R.Bayramlı əlavə edib ki, hazırda koronavirusla bağlı fəaliyyət istiqamətlərini həm müalicə və diaqnostika istiqamətində, həm də profilaktika istiqamətində davam etdiririk.

O vurğulayıb ki, laboratoriyaların sayı 15-ə yaxınlaşır: "Gələn həftə Şəkidə və Sumqayıtda laboratoriyalar açılacaq. Hazırda 3000-ə qədər test edirik. Yaxın gələcəkdə testlərin sayını 5000-ə çatdıracağıq. Testlərlə bağlı xüsusi logistika planları da hazırlanıb. Çağırışlar olan kimi evlərə gedirik, xəstələrdən analizlər götürülür. Onlara müayinə nəticələri məlum olana kimi evdə karantində qalmaq tapşırılır. Pandemiya ilə mübarizəyə ayrılan müəssisələr yalnız koronavirusla xəstələrin müalicəsi ilə məşğul olduğu üçün digər müəssisələrin də üzərinə məsuliyyət düşür".

R.Bayramlı qeyd edib ki, bu gün 3000-dən artıq müayinə aparılıb və 105 xəstə aşkarlanıb.

**Karantində 3 mindən çox vətəndaş saxlanır**

Ramin Bayramlı qeyd edib ki, bu gün Azərbaycanda 2 yaşdan başlamış 89-90 yaşa qədər xəstə var. Onun sözlərinə görə, bu gün vəziyyəti həddindən artıq kritik olan 1 xəstə qadın var: "Həmin qadında yanaşı gedən onkoloji xəstəlik var. Onu xüsusi vurğulayım ki, onkoloji, astma və digər yanaşı xəstəlikləri olanlar koronavirus xəstəliyini daha ağır keçirirlər. Ağır vəziyyətdə olanların əksəriyyəti də belə xəstələrdir".

R.Bayramlı bildirib ki, bu gün Azərbaycanda karantində 3000-dən çox vətəndaş saxlanır. Ötən həftə karantində saxlananların sayı 4000-ə yaxın idi.

TƏBİB sədri əlavə edib ki, karantində saxlananların rejimə əməl etməsi vacibdir. Xəstəliyə yoluxanlar arasında karantinə əməl etməyənlər də var.

**Həkimlər arasında da koronavirusa yoluxma halları var**

R.Bayramlı bildirib ki, Azərbaycanda həkimlər arasında da koronavirusa yoluxma halları mövcuddur. TƏBİB sədri qeyd edib ki, pandemiya xəstəxanasında cəmi bir yoluxma halı baş verib. Yoluxmalar əsasən pandemiya ilə məşğul olmayan tibb müəssisələrində baş verib:

"Burada asimptomatik pasiyentlər digər patologiyalarla müraciət edirlər. Orada tibb müəssisəsində çalışan personal, xüsusilə orta tibb personalı öz işinə məsuliyyətsiz yanaşdıqda belə hal baş verir. Dünyanın inkişaf etmiş ölkələri ilə müqayisədə Azərbaycanda tibb işçilərinin yoluxması halları o qədər çox deyil. Tibb müəssisələrimiz lazım olan qoruyucu vasitələrlə təmin edilib".

**TƏBİB sədri qan donorlarına müraciət etdi**

"Bu gün qan ehtiyatımız var, amma donorların sayında azalma olduğu üçün bu vəziyyətdən narahatıq" - deyən TƏBİB sədri qeyd edib ki, artıq bununla bağlı maarifləndirici məlumatlar hazırlayıblar: "Müxtəlif dövlət qurumları ilə birgə fəaliyyət göstəririk ki, bu məsələdə axsama olmasın. Mən donorlara müraciət edərək bildirmək istəyirəm ki, humanist missiyalarını davam etdirsinlər. Donorların təhlükəsizliyi üçün bütün şərait yaradılıb, onlar hər hansı infeksiya təhlükəsi ilə qarşılaşmayacaqlar. Qan vermək onların xəstəliyə yoluxması üçün risq yaratmayacaq".

# Əfv olunaraq karantinə alınan yaşlı dustaqlar ətrafında da siyasi oyunlar var - Nazirliyin izahı...

**Məlum olduğu kimi, dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar Prezident İlham Əliyevin rəhbərliyi ilə əhalinin sağlamlığının qorunması, qlobal pandemiyanın yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə zəruri preventiv tədbirlər müəyyən edilib, bu məqsədlə xüsusi karantin rejimi elan olunub, virusa yoluxması daha risqli olan yaşı 65-dən yuxarı vətəndaşların sosial izolyasiyasına xüsusi diqqət yetirilib.**

## *Əliməmməd Nuriyev: "Bunu iddia edənlərin karantinin nə olduğundan xəbəri yoxdur"*



Görülən tədbirlər çərçivəsində ölkə Prezidentinin 06.04.2020-ci il tarixli Əfv Sərəncamı ilə yaşı 65-dən yuxarı olan 176 nəfər məhkum cəzasının çəkilməmiş hissəsindən azad olunub.

Hazırda həmin şəxslərin iki həftə müddətinə karantinə alınmasına müxtəlif don geyindirməyə çalışılır. İddia olunur ki, güya bu, Penitensiar Xidmətə aid olan müəssisələrdə koronavirusun yayılması səbəbindən edilib. Ancaq Ədliyyə Nazirliyi bu iddiaları tam əsassız sayır. Nazirliyin bununla bağlı yaydığı məlumatda bildirilir ki, indiki pandemiya şəraitində virusa yoluxması daha ağır nəticələnə bilən həmin şəxslərin azadlığa buraxılması onların həyati təhlükəsizliyi və sağlamlıqlarının qorunması, xüsusilə ailə qayğısı ilə əhatə olunmaları baxımından mühüm humanist addımdır: "Məhkumların təhlükəsizliyi və sağlamlıqları diqqətdə saxlanılaraq, penitensiar müəssisələrdə ardıcıl, kompleks tibbi-profilaktik tədbirlər görülür, məhkumların gündəlik termometriyası, səhhətində hər hansı problemi olan şəxslərin dərhal müayinəsi keçirilir və zəruri müalicəsi aparılır. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına əsasən, pandemiyanın respublikamızın müxtəlif bölgələrində yayılmasının müşahidə olunması və əfv edilən şəxslərin yaşayış yerlərinin 40-dək rayonu əhatə etməsi nəzərə alınaraq, onlar doğmalarının yanına getməzdən əvvəl ailə üzvlərinin də sağlamlıq durumu araşdırılacaq. Bu məqsədlə azad olunan şəxslər iki həftəlik istirahət mərkəzlərinin birinə yerləşdirilib və hər cür şəraitlə, o cümlədən qida və tibbi təminatla təchiz olunublar".

Penitensiar Xidmət yanında İctimai Komitənin üzvü Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, güya cəzaçəmə müəssisələrində koronavirus pandemiyasının yayılması ilə bağlı səslənən iddialar tamamilə əsassızdır:"Bilirsiniz ki, bu addım indiyə qədər Azərbaycan dövlətinin yürütdüyü humanizm siyasətinin davamı sayılır. Budəfəki əfv fəramanında xüsusi kateqoriya olan yaşı 65-dən artıq dustaqlar nəzərə alınaraq azadlığa buraxılıb. Bu kateqoriya xüsusi risqli sayılır. Onların pandemiya olmayan dönəmdə belə xüsusi qayğıya ehtiyacları var. Nəzərə alsaq ki, cəzaçəkmə yerlərində onlar xüsusi rejimdə saxlanırlar, qayğıya tələbatları daha da artır. Prezidentin bu nəcib təşəbbüsü göstərir ki, pandemiya ilə bağlı görülən tədbirlərdə əhalinin bütün təbəqələri nəzərə alınır. Qabaqlayıcı tədbir görmək o anlama gəlmir ki, həmin yerdə xəstəlik var.

Bakıya giriş edən şəxslərin karantina alınması heç də həmin adamların xəstə olması və ya gəldikləri yerdə xəstəliyin tüğyan etdiyinə dəlalət etmir. Bunu iddia edənlərin karantinin nə olduğundan xəbəri yoxdur. Nazirliyin də açıqlamasından görünür ki, azadlığa çüxan keçmiş məhkumlar Azərbaycanın 40 bölgəsini əhatə edir. Bu tədbirlər həm də onların özünün sağlamlığının qorunması baxımından zəruri və vacibdir. Deyilir ki, onların ailə üzvləri də müayinə olunacaq. Çox normal tədbirdi. Əfv edilənlər gözəl şəraiti olan istirahət mərkəzlərindən birinə yerləşdiriliblər. Hər bir zəruri vasitələrlə də təmin ediliblər. Görülən tədbirlərə başqa don geyindirməyə heç bir əsas yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

# 65-dən yuxarı yaşlı dustaqların əfvini siyasiləşdirmək kimlərin işinə yarayır...

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə yaşı 65-dən yuxarı olan 176 nəfər məhkum cəzasının çəkilməmiş hissəsindən azad olunub. Bildirilir ki, bu humanist addım dünyada baş qaldıran koronavirus pandemiyası ilə bağlı atılıb.**




## *Samir Adıgözəlli: "Sabiq generallar türmədə bəyanat verib müxalifətin tərəfinə keçsəydilər, onları bəh-bəhlə alqışlayacaqdılar"*

Bununla həm də bütün dünyada koronavirusla mübarizə getdiyi bir vaxtda Azərbaycanın hüquq sistemində əfv institutunun fasiləsiz fəaliyyəti təmin edilir.

Lakin ənənəvi addımları kimi, bu dəfə də ölkənin daxilindəki bəzi radikal dairələr imzalanan əfv sərəncamına siyasi don geyindirib, onu gözdən salmağa çalışırlar. Budəfəki siyahıda bəzi tanınmış adamların adının olması ilə manipulyasiyalar olunur. Əsasən Akif Çovdarovun, Sübahir Qurbanovun azadlığa buraxılmalarını siyasiləşdirmək cəhdləri özünü göstərir. Sabiq MTN-in bu iki generalının azadlığa buraxılması ilə böyük bir humanist addımı ləkələməyə çalışanların başlıca məqsədi nədir?

İctimai Siyasi Proseslər Beynəlxaaq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, belə dairələr, hər zamankı kimi, yenə də öz ənənəvi ampluasındadır:"Araşdırsanız görərsiniz ki, onlar bütün əfv fərmanlarında belə mövqe ortaya qoyurlar. Bəlkə də dünyada bu ilk haldır ki, məhkumları koronavirus pandemiyası çərçivəsində görülən tədbirlər çərçivəsində azadlığa buraxırlar. Bunu iki əllə alqışlamaq lazımdır. Axı niyə iki yüzə yaxın adamın arasından məhz iki adamın adını seçib hallandırırlar? Həmin iki şəxsin azadlıqda etdikləri əməllərə yaxşı don geyindirməkdən uzağam. Məhkəmənin hökmü ilə cəzalarını alıblar. Beş il cəza çəkən bu adamlar da ölkə vətəndaşıdır, humanizm siyasətindən yararlanmağa haqları var. Əminəm ki, bu sabiq generallar türmədə bəyanat verib müxalifətin tərəfinə keçsəydilər, onları bəh-bəhlə alqışlayacaqdılar. Belə halları biz çox görmüşük. Əli İnsanovdan çox müxalifəti söyən yox idi, amma həbsxanada tutduğu mövqeyinə görə onu radikal dairələr dəstəkləyirdi. Əfv fərmanına adlar sifariş əsasında salınmır ki, müxalifətin bəyəndiyi siyahı üzrə həyata keçirilsin. Bunu Azərbaycan dövlətinin həyata keçirdiyi hummanist addımın tərkib hissəsi sayıram. Bu günümüz üçün əsas vəzifəmiz koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinin öz müsbət nəticəsini verməsinə dəstəyimizi göstərməkdir.

**Dövlət başçısı İlham Əliyevin daha risqli yaş qrupu olaraq 65 yaşdan yuxarı vətəndaşlarımızın qayğısına qalması, Nazirlər Kabineti yanında Operativ Qərargahın karantin qaydalarında onların da evdə olmasının bir tələb kimi irəli sürülməsi ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır".**

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirusla mübarizədə Azərbaycanın dünyada öncül rolunu təmin edən daha bir fakt...

**Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə mühüm amillərdən biri müayinələrin düzgün aparılması və xəstəlik hallarının zamanında aşkarlanmasıdır. Koronavirusla bağlı müayinə sayına görə Azərbaycan MDB və Cənubi Qafqazda birinci yerdədir, hətta bir çox Avropa ölkəsini qabaqlayır.**

*"Ölkəmizdə əhalinin koronavirusa dair müayinələrinin keçirilməsi ilə bağlı görülən işlər tam nəzarətdədir"*

***Rasif Bağırov:*** *"Bu gün ölkəmizdə ən müasir standartlara cavab verən tibbi laboratoriyalar mövcuddur"*




Regionun və dünyanın təcrübəsi göstərir ki, infeksiyanın sürətlə yayılması və pik həddə doğru hərəkət etməsi bir çox obyektiv və subyektiv amillə bağlıdır. Hər bir ölkə və region üçün bu hal spesifikdir. Konkret ölkəmizdən bəhs etdikdə, ilkin dövrdə Azərbaycan yalnız Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) məhdud şəkildə testlər alırdı və həmin dövrdə mövcud imkanlar çərçivəsində müayinələr aparılırdı. Sonrakı dövrdə ölkəmiz artıq özü kifayət qədər testlər almağa başladı. Bunun nəticəsidir ki, bu gün ölkəmizdə sərbəst şəkildə müayinələr aparılır.

Həkim-ekspert Rasif Bağırov bildirdi ki, Azərbaycanda infeksiyaya yoluxmanın sayının məhz indi artmasının bir sıra səbəbləri var: "Yaddan çıxarmayaq ki, ilkin dövrdə infeksiya faktları müəyyən olunanda Azərbaycan yalnız Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) məhdud şəkildə testlər alırdı və həmin dövrdə mövcud imkanlar çərçivəsində müayinələr aparılırdı. Sonrakı dövrdə ölkəmiz artıq özü kifayət qədər testlər almağa başladı. Əgər ilkin vaxtlarda ölkədə gündə cəmi 200-300 test keçirilirdisə, indi gündəlik müayinələrin sayı mindən çoxdur. Bu günədək ölkədə 50 minə qədər test keçirilib. Müayinələrin genişlənməsi yoluxma hallarını müəyyənləşdirmək üçün imkanları artırıb. Həmçinin, Azərbaycan yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar almaqdadır".

Həmsöhbətimiz onu da vurğuladı ki, başlanğıc mərhələdə Azərbaycanda 200-300 test keçirilirdisə, indi gündəlik müayinələrin sayı mini ötüb: "Elə bu səbəbdəndir ki, yoluxma hallarını müəyyənləşdirib qarşısını almaq üçün imkanlar da genişlənib. Bu gün ölkəmizdə ən müasir standartlara cavab verən tibbi laboratoriyalar mövcuddur. Məlumat üçün bildirim ki, Azərbaycanda COVID-19-la bağlı 53 mindən artıq müayinə həyata keçirilib. Bu da əhalinin hər bir milyon nəfərinə düşən müayinənin sayının 5 mindən çox olduğunu göstərir".

**Ekspertin sözlərinə görə, ölkəmizdə əhalinin koronavirusa dair müayinələrinin keçirilməsi ilə bağlı görülən işlər tam nəzarətdədir. Bu istiqamətdə həyata keçirilən bütün işlər Azərbaycan dövlətinin koronavirus infeksiyasına yoluxma hallarının qarşısının alınması və insanların sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər planının bariz nümunəsidir.**

*Günel CƏLİLOVA*

# Koronavirus dinamikası artır, yoluxma və ölü sayı - daha sərt tədbirlər qaçılmaz ola bilər...

**Ölkədə xüsusi karantin rejimi elan edilməsinə baxmayaraq, bəzi şəxslər bu qaydalara əməl etmirlər. Azərbaycanda ciddi karantin rejimi tətbiq olunsa da, hətta SMS vasitəsilə icazə alınıb küçəyə çıxılsa da, paytaxt Bakıda bu, demək olar ki, hiss olunmur.**

*"Xəstəlik yox olana qədər səbr etmək lazımdır, biz bu vəziyyətdən mümkün qədər az itkilərlə çıxmalıyıq, buna görə də..."*

***Adil Qeybulla:*** *"İnsanlar karantin rejiminin qaydalarını gözləmirlər"*



Küçələrdə yenə çoxlu maşın hərəkət edir, xüsusən banklarda, məşğulluq idarələrinin qarşısında insanlar kütləvi şəkildə toplanmaqdadırlar.

Açıqlanan statistik rəqəmlərə əsasən, ölkəmizdə 700-dən çox insan koronavirusa yoluxub, 8 nəfər isə bu xəstəliyin qurbanı olub.

Mütəxəssislərin fikrincə, sosial məsuliyyət və təcridolunma, yaxud özünü sosial təcridetmə hazırkı mərhələdə koronavirusa qarşı ən səmərəli "dərman" kimi başa düşülməlidir. Ancaq təəssüf ki, hələ də epidemiya təhlükəsini ciddiyə almayanlar var. Artıq belə hallara qarşı tədbirlər sərtləşdirilib və bu, öz nəticəsini verəcək. Ancaq ehtiyac yaranarsa, şübhəsiz ki, daha sərt tədbirlərin görülməsinə başlanacaq.

Koronavirusdan əziyyət çəkənlərin sayının azalması üçün ölkəmizdə sərt karantin rejimi tətbiq oluna bilərmi?

Professor, tibbi ekspert Adil Qeybulla bildirdi ki, insanlar karantin rejimi qaydalarını gözləmir: "Lüzumsuz yerə bayıra çıxanlar çoxdur. Hətta saxta sənəd düzəldənlər də və buna görə tutulanlar da var. Ümumiyyətlə, insanlar karantin rejiminin qaydalarını gözləmirlər. Mən həkim olduğum üçün məcbur işə gedib gəlirəm. Məlumdur ki, bizim işimiz birbaşa bu məsələ ilə bağlıdır. Amma lüzumsuz yerə bayıra çıxanlar çoxdur. Hətta saxta sənəd düzəldənlər də və buna görə tutulanlar da var. Bu həmin şəxslərin öz ailələri, ümumilikdə, cəmiyyət qarşısında böyük məsuliyyətsizliklərinin göstəricisidir.

İnsanlar vəziyyətin ciddiliyini dərk etmirlər və insanlar bu məsələyə məsuliyyətsiz yanaşırlar. Bir müddət səbrli olmaq lazımdır. Yəni bu xəstəlik yox olana qədər səbr etmək lazımdır. Biz bu vəziyyətdən mümkün qədər az itkilərlə çıxmalıyıq.

Buna görə də karantin rejimi daha da sərtləşdirilməlidir. Əlbəttə, dövlət də lazımı işlər görməlidir. Yəni lazım olan qədər əhalinin sosial müdafiəsi tədbirlərini görmək lazımdır ki, evdə oturan vətəndaşların ən azı sosial müdafiəsi təmin olunsun.

**Bununla yanaşı, vətəndaşlar da məsuliyyətli olmalıdırlar. Düşünürəm ki, karantin rejiminin pozulması daha çox məsuliyyətsizlikdən doğan məsələdir".**

*Günel CƏLİLOVA*

# Ermənistan Azərbaycana Su-30 və MiQ-35 satmaq istəyən Rusiyanı şantaja başladı...

**Azərbaycan mütəxəssislərindən ibarət nümayəndə heyəti bu günlərdə Rusiyanın "Suxoy" şirkətinin və "MiQ" korporasiyasının zavodlarına səfər edib. Nümayəndə heyəti Rusiyada Su-35 və MiQ-35 döyüş təyyarələri istehsal edən hərbi zavodlarda olub.**

*"...ermənilər isterikaya düşərək Moskvanı şantaj edirlər"*

**Məhəmməd Əsədullazadə:** *"Ermənistanda hesab edirdilər ki, Rusiya Azərbaycana bu kimi təyyarələri satmayacaq"*



Rusiyanın qlobal silah bazarının liderlərindən biri olan "Rosoboroneksport" şirkətinin nümayəndələri və hərbi zavodların rəhbərliyi ilə keçirilən görüşlərdə ölkəmizin Rusiya istehsalı olan ən müasir döyüş təyyarələrinin alınmasında maraqlı olduğu bildirilib. Rusiya tərəfi, öz növbəsində, Azərbaycana Hərbi Hava Qüvvələrimizin ehtiyaclarını ödəyəcək sayda döyüş təyyarələrinin təqdim edilməsinə hazır olduğunu bildirib.

Bu arada Ermənistan bundan narahat olmağa başlayıb. Erməni mediası Rusiyanı şantaj edir. İddia olunur ki, bir neçə il əvvəl Su-30 SM qırıcılarının Ermənistana təhvil verilməsi müzakirə edilərkən ekspertlər bunun Azərbaycanı Su-35-ləri almaqdan ötrü "razı salmaq" üçün edildiyini istisna etmədi: "Ötən ilin dekabrında Su-30 SM qırıcılarının birinci partiyası Ermənistana gəldi. Bu, hərbi-siyasi tarazlığı qorumaq baxımından havada erməni tərəfinin üstünlüyünün qarantı kimi qiymətləndirildi. Müdafiə naziri David Tonayan yanvar ayında Ermənistana növbəti aylarda ikinci bir partiyanın gələcəyini söylədi. Əslində, Rusiya, eyni zamanda, Azərbaycanın silahlanma prosesini davam etdirir və təsdiqləyir ki, Ermənistana tədarüklər yalnız "yağlı bir müştəri" əldə etmək üçündür. Neft bazarındakı vəziyyət çökməyə yaxın olduqda, Rusiya xüsusilə hərbi-sənaye müştərilərinə daha çox ehtiyac duyur".

Erməni mediası belə rəy yaratmağa çalışır ki, guya Rusiya Su-30 SM qırıcılarını Ermənistana verməklə, Azərbaycanı sözügedən hərbi təyyarələri Rusiyadan almağa şirnikləndirir. Bununla Rusiya öz təyyarələri üçün daha sərfəli müştəri tapır. Ermənistan bu kimi şantaj vasitələrinə əl atır ki, Rusiya sözügedən təyyarələri Azərbaycana satmasın.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, görünən odur ki, Rusiya ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlığın inkişafı Ermənistanda ciddi narahatlığa səbəb olub: "Çünki bu ölkənin müttəfiq və havadarının artıq Azərbaycana yeni nəsil hərbi təyyarələr satması İrəvanı pat vəziyyətə qoyub. Ermənistanda hesab edirdilər ki, Rusiya Azərbaycana bu kimi təyyarələri satmayacaq. Rusiya sözügedən təyyarələri regionda ancaq Ermənistana verməklə kifayətlənəcək. Ancaq proseslər heç də onların düşündüyü kimi olmadı. Artıq bu təyyarələrin Azərbaycana satılması razılaşma mərhələsindədir.

Ona görə də ermənilər isterikaya düşüblər və Moskvanı şantaj edirlər. Onların cılız arqumentləri 102-ci Gümrü bazasının bağlanması, Qərbə inteqrasiya kimi absurd yanaşmalarıdır. Qəbul etmək istəmirlər ki, Ermənistan Rusiya üçün əhəmiyyətli ölkə deyil. Bu ölkə forpost olduğu üçün Rusiya istədiyi şəkildə Ermənistanla davranır. Ona görə də Ermənistan tərəfinin bu cılız şantajları əhəmiyyətsizdir. Bu gün Ermənistan Qarabağa görə girovdur və işğalçı mahiyyəti ölkənin normal bir dövlət olmasını əngəlləyir".

***Vidadi ORDAHALLI***

# Ermənistan və Gürcüstanda Azərbaycandakı sayda virus testləri aparmaq imkanı olsaydı... sadə insanların diqqət yetirmədiyi rəqəmlərin hökmü...

**Son günlər verilən məlumatlardan bəlli olur ki, Azərbaycanda koronavirus (COVİD-19) infeksiyasına yoluxma halları artır. Aprelin 4-nə olan məlumata əsasən, ölkədə 555 yoluxma faktı qeydə alınıb. Yoluxmaların sayının artması, demək olar ki, bütün dünya ölkələrində müşahidə olunur.**




Region ölkələri ilə müqayisədə Azərbaycanda vəziyyət qənaətbəxşdir. Bəziləri açıqlanan yoluxma sayları ilə bağlı apardıqları müşahidələrin əsasında yanlış rəylər çıxarırlar. Ümumdünya Səhiyyə Təşkilatının aprelin 4-nə olan məlumatına görə, Ermənistanda 736 yoluxma və 7 ölüm faktı qeydı alınıb. Bu ölkədə Azərbaycanla müqayisədə 5 dəfəyə yaxın az, cəmi 7994 test aparılıb. Gürcüstanda isə yoluxmaların sayı 156 nəfər təşkil edir, lakin ölüm halı hələlik qeydə alınmayıb. Bu müddət ərzində Azərbaycanda Ermənistan və Gürcüstanla müqayisədə daha çox test aparılıb. Ermənistala müqayisədə bu rəqəmlər arasındakı fərq dəfələrlə ölçülür. Aydındır ki, test nə qədər çox aparılırsa bir o qədər çox yoluxmanın üzə çıxma ehtimalı var. Bizdə indiyədək 35 min test edilibsə, Ermənistanda bu rəqəm 7 min ətrafındadır. İndi təsəvvür edək ki, Ermənistan və ya Gürcüstan kimi balaca ölkələrdə Azərbaycanda aparılan sayda, yəni 35 min adam test edilsəydi yoluxma ilə bağlı hansı rəqəmlər üzə çıxmış olardı?

Milli Qeyri Hökumət Forumunun prezidenti Rauf Zeyninin "Bakı-Xəbər"ə açıqlamasında bildirdiyinə görə, regionun və dünyanın təcrübəsi göstərir ki, infeksiyanın sürətlə yayılması və pik həddə doğru hərəkət etməsi bir çox obyektiv və subyektiv amillərlə bağlıdır: "Hər bir ölkə və region üçün bu hal spesifikdir. Bütün dövlətlər çalışırılar ki, pandemiya ilə maksimum həddə mübarizə aparsınlar. Regionda müqayisə aparıldıqda Azərbaycanda vəziyyətin daha yaxşı olduğu üzə çıxır. Biz bu informasiyaları həm də təhlil etmə baxımından diqqətlə izləyirik. Biz 35 min test aparıb 500-dən artıq yoluxma müəyyən etmişik. Ermənistanda isə 7 min testdən 700-dən çox yoluxma var. Burdakı kəskin fərqi, yəqin ki, özünüz də görürsünüz. Faktiki olaraq, Ermənistanda test edilən hər 10 nəfərdən birində yoluxma müəyyən edilib. Bu məntiqlə götürsək, yoxlanılanlar bizdəki qədər, yəni 35 min olsaydı yoluxanların sayı 3500 edərdi. Yalan üzərində qurulan bir ölkə kimi Ermənistanda bu statistika da gizlədilir ki, mövcud hakimiyyət tənqidlərdən uzaq olsun. Məntiqlə, ermənilər hər zaman əzabkeş obrazı yaratmaqda mahirdirlər.

Ancaq görürsünüz ki, bu məsələdə necə susurlar. Bilirlər ki, vəziyyət bir qədər də pisləşsə onlara baha başa gələ bilər. Hətta indiki vəziyyətdə belə onlarda tibb işçiləri çatışmır. Bunu rəsmən bəyan ediblər. Bizdə proses şəffaf aparılır. Hətta deyərdim ki, dünyanın bir çox ölkələrinə örnək olacaq həddədir.

Dövlətimiz tərəfindən aparılan tədbirlər ÜST tərəfindən də tam dəstəklənir. Biz də Milli QHT Forumu olaraq qərargah yaratmışıq. Bütün bölgələrimizdən həmin qərargaha 35 nəfər üzv olub. İctimai maarifləndirmənin həyata keçirilməsində yaxından iştirak edirik. İnanıram ki, tez bir zamanda biz problemin də həllinə nail olacağıq. Bunun üçün vətəndaşın da dövlətə dəstəyi olmalıdır. Verilən bütün tövsiyələrə əməl olunsa, daha az itiki ilə prosesi keçə bilərik".

***Məhəmmədəli QƏRİBLİ***

**Koronavirus pandemiyasının dünya iqtisadiyyatına mənfi təsiri davam edir. Bu fonda dövlətlər virusun iqtisadi fəsadlarını aradan qaldırmaq üçün müxtəlif tədbirlər görür. Onların nə dərəcədə effektiv olacağı isə qarşıdakı dövr ərzində bəlli olacaq.**

# Pandemiyanın Azərbaycana iqtisadi təsiri minimuma endirilir - sosial istiqamətə ayrılan vəsaitlərdə ləngimə və təxirəsalmalar olmayacaq

Azərbaycanda da yaranmış durumla bağlı qabaqlayıcı tədbirlərin miqyası genişlənir. Aparılan təhlillər atılan addımların Azərbaycan iqtisadiyyatına virusun təsirlərinin minimal həddə olacağını, eləcə də ölkə vətəndaşlarının bundan daha az zərər çəkəcəyini deməyə əsas verir. Bir daha xatırladaq ki, Azərbaycan Prezidentinin "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı virusun iqtisadi təsirlərinin aradan qaldırılması istiqamətində genişmiqyaslı işlərin başlanmasına rəvac verib. Bu fonda Nazirlər Kabineti tərəfindən müvafiq Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planı üç istiqaməti - iqtisadi artıma və sahibkarlığa dəstəyi, məşğulluq və sosial rifaha dəstəyi, makroiqtisadi və maliyyə sabitliyini əhatə edir. Bundan başqa, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi, fərdi sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, iqtisadi fəallığın qorunmasına vergi stimullarının verilməsi istiqaməti üzrə işlərin həyata keçirilməsi də diqqət mərkəzindədir. Son məlumatlara görə, pandemiyadan zərər çəkmiş sahələrdə iş yerlərinin sayının azaldılmasının qarşısının alınması məqsədilə əmək müqaviləsi əsasında çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi mexanizmi hazırlanıb. Artıq ödəmələrin həyata keçirilməsinə də start verilib.



Bunun üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat məbləğində maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulur. Digər tərəfdən, İqtisadiyyat Nazirliyi tərəfindən pandemiyadan zərər çəkmiş sahələrdə əmək müqaviləsi əsasında çalışan muzdlu işçilərin, eləcə də fərdi sahibkarların siyahısı artıq tam dəqiqləşdirilib. Sahibkarlıq subyektlərinə əhəmiyyətli vergi güzəştlərinin və tətillərinin verilməsi də indiki halda mühüm əhəmiyyət kəsb edir. İqtisadi artımın və investisiyaların maliyyə mənbələrinin genişləndirilməsi məqsədilə ölkədə kapitalın və əmlakın amnistiyasına görülən hazırlıq da vacib addımlardan sayılır.

O da mühümdür ki, 2020-ci ilin dövlət büdcəsi üçün nəzərdə tutulan bütün sosial proqramlar və sosial ödənişlər həyata keçiriləcək. Bu ondan xəbər verir ki, neftin dünya üzrə bazar qiymətinin aşağı olmasına baxmayaraq, 2020-ci ildə nəzərdə tutulan bütün sosial proqramlar, büdcədə təsdiq olunmuş sosial ödənişlər həyata keçiriləcək. Milli Məclisin deputatı Vüqar Bayramov bütün bunların böyük önəm kəsb etdiyini vurğulayır. Deputat bildirib ki, sosial istiqamətdə nəzərdə tutulan bütün xərclər reallaşacaq:"Bu ilin dövlət büdcəsində neftin qiyməti 55 ABŞ dolları səviyyəsində nəzərdə tutulub. Neftin bazar qiyməti büdcədəki qiymətindən təxminən iki dəfəyə yaxın azdır. Bu da neft daxilolmalarına təsir göstərir. Amma 2020-ci ilin dövlət büdcəsinin gəlirlər hissəsinin strukturuna əsasən, cari ildə büdcənin gəlirləri 24 milyard manat səviyyəsində proqnozlaşdırılır. Büdcə gəlirlərinin 46%-i qeyri-neft sektorunun payına düşür, 54%-i neft sektorunun, amma neft sektorundan ödənilən vəsaitərin 84%-i Dövlət Neft Fondunun büdcəyə transfertləridir. Dövlət Neft Fondu 2020-ci ildə təsdiq olunmuş büdcə proqnozlarına əsasən 6,5 milyard ABŞ dollarlıq vəsait transfert etməlidir. Nəzərə alsaq ki, Fondun aktivləri 43 milyard ABŞ dollarından çoxdur, 2020-ci ildə neftin real bazar qiyməti aşağı olsa belə, Dövlət Neft Fondu tərəfindən transfertlərdə hər hansı bir çətinlik olmayacaq. Çünki Dövlət Neft Fondunun vəsaitləri var və bu da imkan verəcək ki, dövlət qarşısında öhdəliyi yerinə yetirə bilsin. Dövlət Neft Fondunun büdcə gəlirlərində payı 48%, qeyri-neft sektorunun isə 46%-dir. Bütövlükdə 2020-ci ilin dövlət büdcəsinin 94%-i Dövlət Neft Fondu ilə qeyri-neft sektorunun daxilolmalarının payına düşür. Yerdə qalan hissə isə birbaşa neft sektorundan olan gəlirlərdir".

Ekspertin fikrincə, qeyri-neft sektorunda azalmaların olub-olmayacağı karantin rejiminin müddətindən asılı olacaq:"Daha qısa zamanda karantin rejimi ləğv olunarsa, koronavirusun təsirləri minimumlaşarsa, o halda yenidən aktivliyin bərpa edilməsi və qeyri-neft sektorunun öz öhdəliklərini yerinə yetirməsi mümkündür. Amma sözsüz ki, bütün hallarda, ölkə Prezidentinin də tapşırdığı kimi, təcili olmayan xərclərin təxirə salınması istisna edilmir. Amma nəzərə alaq ki, Maliyyə Nazirliyi tərəfindən büdcəyə dəyişiklik etmədən də sekvestr tətbiq edilməsi, yəni təcili olmayan xərclərin təxirə salınması mümkün olur. Eyni zamanda, "Büdcə sistemi haqqında" qanuna əsasən, büdcəyə dəyişiklik edilərək də büdcədə həm gəlirlər, həm də xərclər hissəsində yeniləşmə aparılır.

Nəticə etibarilə parlamentə hökumətdən bununla bağlı layihə daxil olmalıdır. Hazırda belə bir layihə yoxdur. Amma bütün hallarda, 2020-ci ilin dövlət büdcəsində təcili olmayan xərclərin təxirə salınacağı məsələsi var. Lakin yenə də qeyd edim ki, sosial istiqamətə ayrılan vəsaitlərdə hər hansı ləngimələr və təxirəsalmalar olmayacaq. 2020-ci il dövlət büdcəsinin 38,5%-i sosial ödənişlər üçün nəzərdə tutulub və həmin ödənişlərin həyata keçirilməsi üçün büdcədə maliyyə mənbəyinin formalaşması təmin ediləcək".

***Ramil QULİYEV***

**Dünya birjalarında hasilatın azaldılması üzrə yeni OPEC+ sazişinin əldə olunması ümidi ilə dünyada neft qiymətləri yüksəlir. Bunu baş tutan sövdələşmələrin nəticəsi sübut edir. Belə ki, "Brent" markalı neftin qiyməti 2,51% artaraq bir barrelə görə 32,67 dollar, WTI markalı neftin isə qiyməti 5,76% artaraq 24,99 dollar səviyyəsinə yüksəlib.**

# Neft üzərində yeni böyük oyunun şok detalları açıldı - 9 aprel görüşü gündəmdə...

Bazar iştirakçıları OPEC+ iştirakçılarının aprelin 9-da keçiriləcək iclasının mart ayının əvvəlində baş tutan görüşdən daha uğurlu olacağını gözləyir. Xatırladaq ki, OPEC+ aprelin 9-da bazarda vəziyyətin sabitləşməsi üçün neft hasilatında mümkün azalma məsələsini müzakirə etməyi planlaşdırır.

Martın əvvəlində alyansda bu cür müzakirələr uğursuzluqla yekunlaşmışdı. Nə Rusiyanın OPEC+ sazişini sadəcə uzatmaq təklifi, nə də Səudiyyə Ərəbistanının hasilatın azaldılmasını gündə daha 1,5 milyon barrel "dərinləşdirmək" fikri ətrafında konsensusa gəlinmişdi. Nəticədə saziş aprelin 1-dən qüvvədən düşüb. Amma son məlumatlara əsasən, görüş öncəsi hələ də Rusiya və Səudiyyə Ərəbistanı neft hasilatının azaldılmasına dair razılaşmanın şərtlərində razılığa gələ bilmir. Danışıqların gedişi ilə tanış olan mənbə "RİA Novosti"yə bildirib: "Tərəflər konkret sxem barədə razılığa gələ bilməyib, ona görə də, böyük ehtimalla, aprelin 9-u baş tutacaq OPEC+ iclasında yenə fiasco mümkündür". Agentliyin mənbəsi danışıqların yekununa dair proqnoz verməyə çətinlik çəkib. O qeyd edib ki, aprelin 6-sı razılaşma hazır olub, hətta bəzi iştirakçılar bunu öz aralarında belə razılaşdırıb: "Hər şey kvotalarla razılaşmayan Səudiyyə Ərəbistanının mövqeyinə görə pozuldu".

Xatırladaq ki, yaranmış vəziyyətdə ABŞ prezidenti Donald Tramp bəyan edib ki, dünya bazarlarında neftin qiyməti indiki səviyyədə qalsa, neftin idxalına görə yüksək rüsumlar tətbiq edəcək:" Rusiya və Səudiyyə Ərəbistanı razılaşmasalar, mən rüsumlar tətbiq edəcəyəm. Çox yüksək rüsumlar. Çünki biz hazırda müstəqilik. Bizim öz neftimiz var". Türkiyənin "Cumhuriyet" qəzeti isə yazır ki, əslində, neft üzərində qurulan yeni böyük oyun hələ başa çatmayıb:"Dünyanın koronavirusla sınandığı bu günlərdə qlobal




məsələlərdən biri də hər zaman öz aktuallığını qoruyan neft siyasətidir. Əsl oyunçuları Rusiya, Səudiyyə Ərəbistanı və ABŞ olan bu böyük oyunda Putinin güclü həmlələri bu oyunun sonunu gətirəcək kimi görsənir. Səudiyyə Ərəbistanı mat olmamağa, ABŞ isə Rusiyanın bərabərliyə razılaşmasına çalışır. Neft ixrac edən ölkələrin təşkilatı sayılan OPEC 1960-cı ildə qurulub. Təşkilatın 14 üzvü bilinən neft ehtiyatlarının 3-də 2-sini əlində saxlayır. Bu da, sözün əsl mənasında, Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi həmin təşkilatı neft qiymətlərini tənzimləmədə mərkəzi faktor halına gətirir. 2017-ci ildə dəyişən siyasi və iqtisadi şərtlər OPEC+un yaranmasına səbəb oldu - 14 OPEC üzvü ilə Rusiyanın rəhbərlik etdiyi OPEC üzvü olmayan 10 neft ixracatçısı ölkə qiymətlərin təyin edilməsində məcburi razılaşmaya getdi. Bundan daha önəmli olan məsələlərdən biri də ABŞ-ın şist neft istehsalı idi. Şist neft istehsalı sayəsində ABŞ, məsələn, 2008-ci ildə günlük 5 milyon barrel neft istehsal edə bilirdisə, bu, 2020-ci ildə 13 milyon barrelə çatdı. Koronavirus pandemiyası səbəbindən isə Çinin məcburən aldığı sərt tədbirlər ölkədə sənaye istehsalını aşağı saldı. Bu da ən böyük neft idxalçısı sayılan Çinin neftə tələbini azaltdı. Buna qlobal tədarük zəncirindəki qopmalar və nəqliyyat sahəsindəki azalma da əlavə olunduqda, neftin qiyməti sürətlə düşməyə başladı. Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi OPEC üzvləri qiymətin düşməsinin qarşısını almaq üçün istehsalı azaltmağa çalışsa da, Rusiyanı buna razı sala bilmədi. Bu səbəblə də Səudiyyə Ərəbistanı istehsal sahəsində işlərini intensivləşdirdi - böyük ehtimalla, rəsmi Ər-Riyad iqtisadiyyatı neft və təbii qaz satışına dayanan Moskvanın intensiv xarakter alan sənaye istehsalı zamanı qiymətlərin düşməyinə çox da tab gətirə bilməyəcəyini təxmin edirdi. Beləliklə, qiymətlər sürətlə düşməyə başladı. Ancaq görünən odur ki, Tramp və şahzadə Salman taktiki səviyyədə irəliləyərkən, Putin böyük strateji həmlələr üzərində çalışırdı. Nəticədə, iqtisadiyyatının neftin ucuzlaşmasına tab gətirə biləcəyini hesablayan rəsmi Moskva bu böhranı bir fürsətə çevirdi və Avropa bazarında Rusiyanı sıxışdıran ABŞ-ın şist neft istehsalçılarını "yüksək vəsait"lə zəiflətməyi hədəflədi. Yəni neftin qiyməti düşdükcə, həmin qiymətdən baha olan şist neft istehsalçısı amerikalılar istehsal artırmaqda çətinlik çəkəcək və Avropa bazarındakı hissələri sürətlə azalacaqdı. Hərçənd, elə bu mənzərə yavaş-yavaş görsənməyə başlayıb. ABŞ neft qiymətlərinin düşməsi ilə öncəliklə Rusiyanın iqtisadiyyatını böhrana uğradacağını, sonra isə Avropa bazarında öz hissələrini artıracağını hesablamışdı. Rəsmi Ər-Riyad isə qiymətlərin enməsi ilə avropalı müştərilərinin Rusiyanın əlinə keçəcəyini düşünürdü. Ancaq iqtisadi böhrana məruz qalmayan Rusiya amerikalı istehsalçıların istehsal edə bilməyəcəkləri qiymətlərə qədər neftin düşməsinin yolunu açdı. Bu müddət ərzində Putinin ən önəmli mənfəəti koronavirusla mübarizədə qalib gələn və sonradan Rusiyadan neft almağa davam edən Çin idi.

ABŞ-ın bu məsələdə üçüncü hədəfi də Səudiyyə Ərəbistanı və Rusiya ittifaqına dayanan OPEC+ razılaşmasına "çomaq soxaraq", ABŞ-Səudiyyə ittifaqını qurmaq niyyət idi.

Ancaq həm Vaşinqton, həm də Ər-Riyad Moskvanın neft qiymətlərinin azalmasına qarşı dirənişinə uduzmaq üzərədir. Hansı ki, öz iqtisadiyyatları böyük çətinliklə üzləşdi. Bu səbəblə də Moskvanı yeni bir təklifə razı salmağa çalışırlar - "Energetika birjalarını balanslaşdırma" təklifi və bunun qarşılığında ABŞ-ın Səudiyyə Ərəbistanı ilə neft ittifaqı qurmaq planlarından vaz keçməsi.

**İndi maraqlıdır: danışıqlar müddətində tərəflər razılığa gələcək, yoxsa aktorlar bir-birinin dözümlülüyünü yoxlamaq üçün bu prosesi bir az da uzadacaqlar? OPEC və OPEC+ ölkələrinin 9 apreldə baş tutacaq videogörüntülü konfransında bu, çox güman ki, dəqiqləşəcək. Lakin konfransın nəticəsi nə olarsa olsun, bu, sadəcə olaraq, qısamüddətli həll yolu sayılacaq. Çünki uzun bir zaman içində görsənən yeni mənzərə formalaşıb - ABŞ hegemoniyasına söykənən neoliberalizmin və neft-dollar sisteminin çöküşü. Artıq əsas məsələ, çökənin yerinin necə doldurulacağıdır".**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycandan Ermənistanı lərzəyə salacaq növbəti hərbi gediş...

**Hərb sahəsində Azərbaycan işğalçı Ermənistanı kifayət qədər narahat edəcək daha bir addım atmağa hazırlaşır. Söhbət hərbi aviasiya sahəsində Azərbaycanın Ermənistan üzərində əzici hərbi üstünlüyünü daha da artırmaq istiqamətində növbəti addımlarından gedir.**

Belə görünür ki, Azərbaycan həm də Ermənistanın Su-30 qırıcı təyyarələrini alması ilə bağlı sevincini də gözündə qoyacaq.

Xatırladaq ki, Ermənistan Rusiyadan 4 ədəd belə təyyarə almalıdır. Amma indiyə qədər onlardan yalnız bir ədədi Ermənistana təhvil verilib. Digər üçünün çatdırılması isə sual altındadır. Buna rəğmən, Ermənistanda iddia olunurdu ki, sözügedən təyyarənin alınması ilə İrəvan Bakı ilə hərb müstəvisində yaranan fərqi azalda biləcək. Amma Azərbaycan düşmənin bu yöndə sevincini yenə "qursağında" qoyacaq. Belə ki, ölkəmiz Rusiyadan Su-30-larla müqayisədə daha üstün keyfiyyət göstəricilərinə malik təyyarə almağa hazırlaşır. Artıq məlum olduğu kimi, Azərbaycanla Rusiya arasında hərbi-texniki əməkdaşlıq çərçivəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin mütəxəssislərindən ibarət heyət Rusiyanın hərbi-sənaye kompleksinə daxil olan müəssisələrdə olub. Azərbaycan nümayəndə heyətinin üzvləri Rusiyanın Su-35 və MiQ-35 döyüş təyyarələrini istehsal edən hərbi zavodlarına baş çəkiblər. Rusiyanın qlobal silah bazarının liderlərindən biri olan "Rosoboroneksport" şirkətinin nümayəndələri və hərbi zavodların rəhbərliyi ilə keçirilən görüşlərdə ölkəmizin Rusiya istehsalı olan ən müasir döyüş təyyarələrinin alınmasında maraqlı olduğu bildirilib. Nümayəndə heyətimizə təyyarələrin taktiki-texniki xüsusiyyətləri, döyüş qabiliyyəti, silahlanması, ümumilikdə aviasiya vasitələrinin istehsalı, istismarı və onlara texniki xidmət göstərilməsi barədə brifinqlər təqdim olunub. Rusiya tərəfi, öz növbəsində, Azərbaycana Hərbi Hava Qüvvələrimizin ehtiyaclarını ödəyəcək sayda döyüş təyyarələrinin təqdim edilməsinə hazır olduqlarını bildirib. Hərbi pilotlarımız Rusiyanın hərbi aviabazalarında MiQ-35 təyyarəsində praktiki uçuşlar da yerinə yetiriblər. Bundan əlavə, Azərbaycan nümayəndə heyətinə təyyarələrin taktiki-texniki xüsusiyyətləri, döyüş qabiliyyəti, silahlanması, ümumilikdə aviasiya vasitələrinin istehsalı, istismarı və onlara texniki xidmət göstərilməsi barədə məlumat verilib. Xatırladaq ki, hazırda Azərbaycan Hərbi Hava Qüvvələrinin silahlanmasında Rusiyanın MiQ-25 və MiQ-29, həmçinin Su-25 və Su-24 təyyarələri var. Amma belə görünür ki, onların sırasına yaxın tezlikdə Su-35 və MiQ-35 döyüş təyyarələri də əlavə olunacaq. Rusiyanın Federal Hərbi-Texniki Əməkdaşlıq Xidməti də bu fonda yenidən bəyan edib ki, Rusiya Azərbaycanla hərbi-texniki əməkdaşlığın geniş spektrli istiqamətləri, o cümlədən aviasiya təchizatı üzrə danışıqlar aparmağa hazırdır: "Azərbaycan hərbi-texniki əməkdaşlıq sahəsində Rusiya Federasiyasının çoxdankı tərəfdaşıdır. Bu əməkdaşlıq ölkələrimiz arasında davamlı və sistemli şəkildə inkişaf edir. Bu baxımdan həmkarlarımızla əməkdaşlığın geniş spektrli istiqamətlərini, o cümlədən aviasiya mövzusunu müzakirə etməyə hazırıq".

Qeyd edək ki, Su-35 və MiQ-35 döyüş təyyarələri göstəricilərinə görə fərqlənən aviasiya vasitələri sırasında yer alır. Konkret olaraq Su-35 təyyarəsi özündə nisbətən yüksək texniki göstəriciləri və uyğun qiyməti birləşdirir. Yeni aviasiya platforması yaxşı uçuş və döyüş xüsusiyyətləri göstərir. Müasir avionika ilə təchiz olunan bütün bu xüsusiyyətlər Su-35, onun əsas versiyalarından olan Su-35S qırıcısını hər hansı xarici təyyarə üçün son dərəcə təhlükəli bir düşmən halına gətirir. Su-35S təyyarəsi rus ordusundakı ən ciddi və effektiv çoxməqsədli qırıcı adını qoruyur. Onun çox yüksək göstəricilərlə bərabər, olduqca məqbul qiymətə malik olduğu bildirilir. Qırıcı yüksək uçuş göstəricisi ilə yanaşı kifayət qədər ciddi döyüş yükünü də daşıyır. Rusiyanın istehsal etdiyi təyyarələr içərisində ən güclüsü indiyə qədər məhz Su-35 hesab edilir. Su-27-nin əsasında yığılan bu təyyarə "4++" nəslinə aiddir. Bir neçə keyfiyyətinin çatışmaması onu 5-ci nəsil təyyarələr sinfinə aid etməyə imkan vermir. 2008-ci ildən hazırlanan bu təyyarədən yalnız Rusiya ordusunda istifadə edilir. Amma görünür, tezliklə Azərbaycan da həmin təyyarədən istifadə edənlər sırasında yer alacaq.

Su-35 bir çox keyfiyyətləri ilə digər ölkələrin təyyarələrini üstələməyi bacarır. Bu təyyarənin ən zəif tərəfi isə onu radarlara yaxalanmaqdan xilas edən stels texnologiyasına malik olmamasıdır. Al-41F1C mühərriki ilə təchiz edilən təyyarə forsaj vermədən belə səsdən yüksək sürət yığa bilir. Bu mühərriklər həmçinin 5-ci nəsil təyyarələrin də tələbinə cavab verir. Bu təyyarələr 6000 yay saatı və ya 30 il ərzində istifadə edilə bilər. Su-35-lər üzərində həmçinin H035 İrbis radiolokasiya sistemləri quraşdırılıb. Bunun vasitəsilə Su-35-lər 400 kilometrdəki hədəfi müəyyən edə bilirlər. Su-35-in uzunluğu 21,9, hündürlüyü 5,9 metrdir. Təyyarənin boş çəkisi 19000 kiloqram, normal uçuş çəkisi 25300 kiloqram, maksimal uçuş çəkisi 34500 kiloqramdır. Təyyarənin yerdə sürəti 1400 km/saat, havada sürəti 2500 km/saatdır. Uçuş məsafəsi yerdə1580 kilometr, havada isə asma yanacaq çəni olmadan 3600 kilometrdir. Maksimum 20000 metr hündürlükdə uça bilir. Təyyarə 150 mərmisi olan 30 millimetrlik aviasiya silahı QŞ-30-1-lə təchiz edilib. Təchizatında, həmçinin, orta məsafəli "hava-hava" tipli raketlər olan 6 ədəd R-27ER, R-27T, 10 ədəd PBB-AE raketləri, kiçik məsafəli 6 ədəd P-73 raketlərindən də istifadə olunub. Onun üzərində gəmi əleyhinə 6 ədəd X-31 və ya 2 ədəd X-59M raketləri də var. Bundan başqa, Su-35-in silahlanmasına yüksək texnologiyalı raket olan X-29T və KAB-500-də daxildir. Onların sayı bu təyyarədə 6 ədəddir. Bu təyyarələr alındığı təqdirdə ölkəmizə yeni hərbi üstünlüklər qazandıracaq.

MiQ-35-lər də bu gün fərqlənənlər sırasında yer alır. MiQ-29 yüngül qırıcısının ən son modifikasiyası olan bu təyyarə zahirən MiQ-29K/KUB və MiQ-29M/M2 təyyarələrinə bənzəsə də, quyruqda olan və qatlanan qanadları yoxdur. Təyyarə "Klimov" zavodunda istehsal olunmuş RD-33MK mühərrikləri ilə təchiz olunub. MiQ-35 təyyarəsinin ön şassisinin altında optik-elektron konteyner də var. MiQ-35 qırıcısı 3500 kilometrlik fəaliyyət radiusuna malikdir. Ən müasir silahlarla və texnika ilə təchiz edilmiş MiQ-35 təyyarəsi eyni anda 30-dək hədəfi "müşayiət" edə bilir, 10 hədəfi eyni anda vurur. Üstəlik, bu təyyarə çox yüksək intensivliyə malik münaqişə arealında özünü "rahat" hiss edir. Hazırlıqsız aerodromlardan da səmaya qalxa bilən qırıcının bütün idarəetmə sistemləri 4 ehtiyat variantına malik olduğundan, həddən artıq etibarlı və keyfiyyətlidir. Tam bir aviasiya kompleksi sayılan MiQ-35 dünyanın 50 ölkəsinin hərbi-hava qüvvvələrinə unifikasiya edilərək uyğunlaşdırılıb ki, bu da qırıcının satıcılıq və rəqabət qabiliyyətini xeyli artırıb. Təyyarə iki variantdadır: bir yerlik MiQ-35 və iki yerlik Miq-35D.

MİQ-35 yüngül qırıcısı ən son göyərtə avadanlığı və perspektiv silahlarla təchiz olunduğundan çox geniş spektrdə tapşırıqları yerinə yetirə bilir. Həmin tapşırıqlar arasında havada üstünlüyün əldə olunması; rəqibin 4-cü və 5-ci nəsil qırıcılarına qarşı effektiv müqavimət; mövcud hava hücumundan müdafiə sistemlərinin sıradan çıxarılması və məhv edilməsi; istənilən hava şəraitində düşmənin hava hücumundan müdafiə sistemlərinin fəaliyyət zonasına daxil olmadan yerüstü və sudakı hədəflərin uzaqdan məhv edilməsi; optik-elektron və radiotexniki vasitələrdən yararlanmaqla hava kəşfiyyatının aparılması; avia qruplaşmasının idarəolunması məqsədli hava məntəqəsi-qərargahı funksiyasının yerinə yetirilməsi və sair var. Qırıcı təyyarə mövcud "hava-hava" və "hava-yer" tipli raketlərlə yanaşı, düşmənin hava hücumundan müdafiə qüvvələrinin fəaliyyət zonasına daxil olmadan hədəfləri vurmağa imkan verən raketlərlə təchiz olunub. MiQ-35 təyyarəsinin uzunluğu 17,32 metr, hündürlüyü 4,73 metrdir. Yer yaxınlığında maksimal sürəti 1450 km/saat, səmada maksimal sürəti 2560 km/saatdır. Əlavə yanacaqdoldurma olmadan uçuş məsafəsi 3100 kilometrdir. Ən başlıcası isə, MiQ-35 yüngül qırıcısı ABŞ-ın "Lockheed Martin" korporasiyasının istehsalı olan F-35 qırıcısından effektiv, sürətli və ucuzdur. "MiQ" korporasiyası ən son model yüngül qırıcı təyyarəsini Azərbaycana satmağa hazırdır və bununla bağlı artıq danışıqların da getdiyi yuxarıda qeyd edilənlərdən aydın görünür.

Ekspertlər hesab edir ki, belə təyyarələrin alışı Dağlıq Qarabağ münaqişəsinin həlli hərbu müstəviyə keçəcəyi təqdirdə Azərbaycana əlavə mühüm hərbi üstünlüklər qazandıracaq. Proseslərin gedişi isə həmin təyyarələrin yaxın tezlikdə ordumuzun ixtiyarında olacağını deməyə əsas verir. Elə Ermənistanı narahat edən də məhz budur.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Əmək müqaviləsi olmadan işləyənlərə dövlət dəstəyi kimi çətin problem gündəmdə - Nazirlik nə edəcək...

**Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev birdəfəlik ödəmə ilə bağlı keçirdiyi mətbuat konfransında deyib ki, əmək müqaviləsi olmayan şəxslərin sosial tədbirlərlə əhatə edilməsi tapşırılıb.**

*"Onlara da 190 manat birdəfəlik yardımın verilməsi nəzərdə tutulub"*

O bununla bağlı bir sıra məqamlara toxunub: "4 istiqamət üzrə insanlara sosial dəstək veriləcək. Həyati vacib obyektlərin işini davam etdirməkdə olan iş yerləri üçün işçi təminatı təmin edilib. Bu gün dövlət sektorunda 910 min nəfər əmək müqaviləsi ilə işləyir".

Nazir bildirib ki, qeyri-dövlət sektorunda əmək müqaviləsi ilə işləyənlər ikinci istiqamətdə dəstək alacaq işçilərdir: "Bu sektorda 660 min əmək müqaviləsi ilə çalışır. Son 10 gündə əmək müqaviləsi ilə işləyənlərin sayında ciddi artım olub. Ləğv edilən hər bir əmək müqaviləsi üzrə işəgötürənlərlə müzakirə aparılır. Onlara izah edilir ki, bu dövrdə maksimum dərəcədə müqavilələrin ləğvi olmasın".

S.Babayev onu da qeyd edib ki, üçüncü istiqamət işsizlər və əmək müqaviləsi olmadan qeyri-formal məşğulluq sahəsində işləyənlərlə əlaqəlidir: "Onlar da sosial cəhətdən ən çox zərbə alanlardır. Bu gün onların sosial təminatı yoxdur. Bu şəxslərin sosial tədbirlərlə əhatə edilməsi tapşırılıb".

Məlum olduğu kimi, bu gün ölkədə xeyli sayda qeyri-rəsmi işləyən var ki, indi çətinliklə üzləşiblər. Karantin tədbirləri ilə əlaqədar onlar gündəlik işləyə bilmirlər. Digər tərəfdən, həmin kateqoriyaya aid olan işçilərin bir qismi kirayələrdə yaşayır. Kirayələrdə yaşayanlar əsasən rayonlardan Bakiya işləməyə gələnlərdir. Əmək müqaviləsi olmayanlara da sosial dəstək verilməsinin gündəmə gəlməsi müsbət addımdır.

Maraqlıdır, onların sosial tədbirlərlə əhatə olunması nədən ibarət ola bilər?

Sözügedən məsələyə aydınlıq gətirən millət vəkili Vüqar Bayramovun sözlərinə görə, qeyri-rəsmi işləyənlər də birdəfəlik yardım alacaq: "Məlum olduğu kimi, sosial paket elan edilib. Birinci mərhələdə məşğulluq xidmətlərində qeydiyyatda olan 200 min vətəndaşa aylıq 190 manat birdəfəlik yardım ediləcək. Sözügedən yardımların aprel-may ayında edilməsi nəzərdə tutulub. İkinci mərhələdə isə artıq qeyri-leqal sektorda çalışanlara yardımların edilməsi planlaşdırılır. Bu, məşğulluq xidmətlərində qeydiyyatda olmayan və hazırda işləməyən şəxslərə yardımın edilməsini özündə ehtiva edir. Bununla bağlı ƏƏSMN-də iş gedir. Sözügedən paketin məqsədi ondan ibarətdir ki, həmin vətəndaşlara da sosial dəstək verilsin. Yəni qeyri-rəsmi işsizlər də birdəfəlik yardımlar ala bilsinlər.

**Vüqar Bayramov:** *"Qeyri-rəsmi işsiz vətəndaşlar məşğulluq xidmətlərində elektron qeydiyyatdan keçməklə birdəfəlik yardım almaq hüququ qazanacaqlar"*




Ona görə də qeyri-rəsmi işsiz vətəndaşlar indiki mərhələdə ƏƏSMN yanında məşğulluq xidmətlərində elektron qeydiyyatdan keçməklə birdəfəlik yardım almaq hüququ qazanacaqlar. Müraciətlərə nazirlik baxacaq və meyarlara uyğun qərar veriləcək. Onlara da 190 manat birdəfəlik yardımın verilməsi nəzərdə tutulub. Bu da onu göstərir ki, sosial paket növbəti mərhələdə daha çox vətəndaşı əhatə edəcək. Xüsusən də koronavirus üzündən iş yerlərini itirən və əmək müqaviləsi olmayan vətəndaşlar da bu yardımdan istifadə hüququ qazanacaqlar. Bu da imkan verəcək ki, daha çox işsiz vətəndaş birdəfəlik yardım almaq hüququ əldə etsin".

***Vidadi ORDAHALLI***

# Fərdi sahibkarlar üçün DSMF ödənişləri necə sadələşdiriləcək - Koronavirusla mübarizənin daha bir mütərəqqi sosial təzahürü...

**Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, müxtəlif fərdi sahibkarların Dövlət Sosial Müdafiə Fonduna ödəmələri müəyyən qədər yüngülləşdiriləcək. Onun sözlərinə görə, ƏƏSMN İqtisadiyyat Nazirliyi ilə birlikdə DSMF-yə edilən ödənişlərlə bağlı optimallaşdırılmış təkliflər hazırlayıb.**




Nazir deyib ki, burada söhbət daha çox müxtəlif fərdi sahibkarlar üçün DSMF-yə ödəmələrin müəyyən qədər yüngülləşdirilməsindən, diversifikasiyasından gedir: "Bakı şəhəri üzrə bir əmsalın, regionlar üçün digər əmsalın tətbiqindən söhbət gedir. Bəzi təxirəsalmalar da ola bilər. Amma sosial sığorta haqqı heç kim üçün silinə bilməz. Çünki sosial sığorta haqqının sahibi nə dövlət, nə də işəgötürən deyil. Onun sahibi işçidir ki, o da bu pulu gələcək pensiyası üçün depozit qoyub. Biz yalnız müəyyən qədər təxirəsalmalar etməklə güzəştlər edə bilərik. Məsələn, hansısa cərimələr, faizlər hesablanmasın, iki-üç ay ləngimələr olsun".

Nazir hesab edir ki, bu güzəştlər muzdlu işçilərə görə edilməməlidir: "Çünki muzdlu işçilərə əməkhaqqının ödənilməsi üçün dövlət tərəfindən dəstək göstəriləcək və onların sosial sığorta ayırmaları da nəzərə alınacaq. Ona görə də onlar üçün sosial sığorta haqları ödənilməlidir. Fərdi sahibkarlara gəldikdə isə, onlar özləri ödəyicidirlər və özlərinin pensiya təminatını qururlar. Biz müəyyən çətinliklərin olmasını nəzərə alaraq, xüsusilə regionlar üçün yüngülləşdirməyə getməyə planlaşdırırıq".

Maraqlıdır, DSMF-yə ödənişlər necə sadələşdiriləcək? Regionlar üçün nəzərdə tutulan yüngülləşdirmə nədən ibarət olacaq?

*"...müvəqqəti olaraq sahibkarların daha az ödəniş edəcəyi gözlənir"*

Sözügedən məsələyə aydınlıq gətirən sosial sahə üzrə ekspert Firdovsi Şahbazov bununla bağlı bir sıra məqamlara toxundu. Onun fikrincə, koronavirusla əlaqədar olaraq regionlarda fəaliyyət göstərən fərdi sahibkarların DSMF-yə daha az məbləğdə ödənişlər edəcəyi gözlənir: "Fərdi sahibkarlar üçün sığorta ödənişləri hər kvartal üçün 150 manatdır. Aprel hesabat ayı olduğu üçün vəsait ödənilməlidir. Ancaq koronavirusun yaratdığı vəziyyətlə əlaqədar olaraq ödənişləri ləngitmək mümkün olacaq. Yəni mütləq deyil ki, ödənişlər apreldə edilsin. Bundan sonrakı aylarda sahibkarlar sığorta ödənişlərini hissə-hissə ödəyəcəklər. Əsas güzəşt bununla bağlı olacaq. Ola bilsin ki, vəziyyət tam düzələndən sonra sahibkarlar ödəniş etsin.

**Firdovsi Şahbazov:** *"Vəziyyətlə əlaqədar regionlar üzrə sığorta ödənişinin məbləği aşağı salınacaq"*

Hələlik ƏƏSMN bunlara tam aydınlıq gətirməyib. Bir məqamı da qeyd edim ki, sığorta ödənişində Bakı ilə regionlar arasında fərq var. Bakıda bu 50 manatdırsa, regionlarda bu 35 manatdır. Görünür, bu fərq bir az da regionların xeyrinə dəyişəcək. Fikrimcə, vəziyyətlə əlaqədar regionlar üzrə sığorta ödənişinin məbləği aşağı salınacaq. Bunun konkret nə qədər olacağını indidən demək çətindir, amma müvəqqəti olaraq sahibkarların daha az ödəniş edəcəyi gözlənir".

***Vidadi ORDAHALLI***

# İndiki ağır günlərdə işsizlər də dövlət dəstəyindən kənarda qalmadı - 190 manat yardım...

**Məlum olduğu kimi, Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planında işsiz kimi qeydiyyata alınan şəxslərə aprel-may aylarında hər ay üçün yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub.**

*"Unutmayaq ki, indiki şəraitdə, vəziyyətdə, məbləğindən asılı olmayaraq, əhalinin bu həssas təbəqəsinə maddi yardımların edilməsi bir dəstək formasıdır, stimullaşdırıcı amildir"*

## Elşad Məmmədov: *"...sosial dəstək olaraq səciyyələndirilməlidir"*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, işsiz kimi qeydiyyata alınmaq və ya birdəfəlik ödəməni (190 manat) almaq üçün karantin rejimini pozub evdən çıxaraq Məşğulluq Mərkəzlərinə müraciət etmələrinə heç bir ehtiyac yoxdur. Xüsusi karantin rejimi ilə əlaqədar hazırda mərkəzlərdə vətəndaş qəbulu da həyata keçirilmir.

Eyni zamanda, işsiz şəxslərin qeydiyyatı yalnız elektron qaydada aparılır. Belə ki, işsiz şəxs qeydiyyata alınması üçün www.e-sosial.az portalına daxil olaraq "e-xidmətlər" bölməsindən "Vətəndaşların işaxtaran və işsiz kimi qeydiyyata alınması, qeydiyyatdan müvəqqəti çıxarılması və qeydiyyatın ləğv edilməsi" xidmətini seçməlidir.

Birdəfəlik ödəmənin verilməsində ünvanlılıq prinsipi, şəxsin ailə gəlirləri nəzərə alınacaq. Bununla bağlı mexanizm hazırlanır. Bu proses yaxın günlərdə başa çatdıqdan sonra birdəfəlik ödəmə vəsaitləri işsizlərə nağdsız qaydada (bank xidmətləri vasitəsilə) ödəniləcək.

İşsiz şəxslərə birdəfəlik ödəməni almaq və ya işsiz kimi qeydiyyata alınmaq üçün məşğulluq mərkəzlərinə müraciət etməmələri, bunun üçün evdən çıxaraq xüsusi karantin rejimini pozmamaları tövsiyə edilir.

Onu da qeyd edək ki, dövlətin sosial dəstək tədbirləri 1 milyon 900 min insanı əhatə edəcək.

Koronavirus dövründə işsizlərə ayda 190 manat yardım verilməsi dövlətin əhalinin bu kəsiminə növbəti sosial dəstəyinin örnəklərindən biridir.

İqtisadçı Elşad Məmmədov bizimlə söhbətində bildirdi ki, belə ağır günlərdə dövlətin işsiz vətəndaşları unutmaması təqdirəlayiqdir. O hesab edir ki, indiki şəraitdə veriləcək məbləğ işsizlərə maddi-mənəvi stimul olacaq.



"Bu gün görürük ki, sosial probelmlər koronavirusla, bütövlükdə, iqtisadi böhranla bağlı ön plana çıxır. Bu ağır sosial şəraitdə əhalinin işsiz təbəqəsinə birdəfəlik yardımın edilməsi, təbii ki, əhalinin aztəminatlı təbəqələri üçün dövlət dəstəyi olaraq qəbul olunmalıdır. Sözsüz ki, dövlətin əhalinin aztəminatlı təbəqələrinə diqqət göstərməsi, onlara yardımlar etməsi təqdirəlayiqdir. Dövlət işsizlərə 190 manat birdəfəlik yardım etməklə onlara dəstək olur. Ümid edirəm ki, bununla növbəti sosial paket məhdudlaşmayacaq, Azərbaycan sosial statusa malik olan dövlət kimi bundan sonra da sosial siyasətlə bağlı ardıcıl qərarlar qəbul edəcək. O ki qaldı işsizlərə, ödəniləcək 190 manat yardımın onların problemini həll edib-etməyəcəyinə, sözsüz, bunun böyük vəsait olduğunu qeyd edə bilmərik. Eyni zamanda, unutmayaq ki, indiki şəraitdə, vəziyyətdə, məbləğindən asılı olmayaraq, əhalinin bu həssas təbəqəsinə maddi yardımların edilməsi bir dəstək formasıdır, stimullaşdırıcı amildir".

E.Məmmədovun sözlərinə görə, əhalinin aztəminatlı təbəqəsinə aid olan və 190 manat yardım alacaq işsizlərə ödəniləcək bu vəsait stimullaşdırıcı təsirə malikdir. O hesab edir ki, bu siyasət davam etdirilməlidir. "Amma, eyni zamanda, dövlət tərəfindən işsizlərə 190 manat birdəfəlik yardımın verilməsi, şübhəsiz ki, əhalinin zəif təmin olunmuş təbəqələri üçün sosial dəstək olaraq səciyyələndirilməlidir" - deyə E.Məmmədov vurğuladı.

***İradə SARIYEVA***

# Əlillik dərəcələrinin bir ay uzadılması nə qədər insanı əhatə edəcək...

**Baş nazir Əli Əsədov yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində əlilliyi olan şəxslərin əlillik müddətinin uzadılması barədə qərar imzalayıb.**



## Davud Rəhimli: *"Bu, indiki çətin dövrdə əlilliyi olan şəxslərə göstərilən sosial qayğı və edilən güzəştdir"*

Qərarda deyilir: "Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində əlilliyi olan şəxslərin sosial müdafiəsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. 2020-ci il martın 1-dən etibarən əlillik müddəti başa çatan əlilliyi olan şəxslərin, o cümlədən, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların əlillik müddəti Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin bitdiyi tarixdən sonrakı ayın 1-dək uzadılsın.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu qərardan irəli gələn məsələləri həll etsin".

Görünən odur ki, koronavirusun yaratdığı məlum vəziyyətlə əlaqədar olaraq əksər sosial təbəqə, o cümlədən, sosial baxımdan daha həssas olan qruplar da diqqətdən kənarda qalmırlar. Bu baxımdan, əlilliyi olan şəxslərin, əlillik müddətinin bir ay uzadılması onlara verilən sosial dəstəyin göstəricisidir.

Məsələyə münasibət bildirən Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimlinin sözlərinə görə, bu, sözügedən kateqoriyadan olan əlilliyi olan şəxslərə göstərilən qayğıdır: "Məsələ ondadır ki, əlilliyi olan şəxslər koronavirusla əlaqədar olaraq müvafiq qurumlara gedə bilmirlər. Nəzərə almaq lazımdır ki, 18 yaşadak əlilliyi olanlara ümumi müavinət verilir. 18 yaşdan sonra isə dərəcələr müəyyən edilir. Mövcud vəziyyətlə əlaqədar olaraq bunları yoluna qoymaq çətindir. Bundan əvvəl ünvanlı sosial yardım alanlar elektron xidmətlərdən itifadə edirdilərsə, indi əlilliyi olanlar da bu xidmətdən istifadə edəcəklər. Yəni əlilliyin təyin olunmasında da bu xidmətdən istifadə ediləcək. Digər tərəfdən, hər hansı bir şəxsin əlillik təyin olunma vaxtı bitibsə, o, karantin müddətində yenidən müraciət etməyə bilər. Çünki əlavə olaraq daha bir ay onlara əlilliyə görə müavinət veriləcək. Onların pensiya təminatı dayandırılmayacaq və əvvəlki kimi müavinət alacaqlar.

*"Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların sayı hər il dəyişir"*

**Bu, indiki çətin dövrdə əlilliyi olan şəxslərə göstərilən sosial qayğı və edilən güzəştdir. Ona görə də sözügedən qərarı alqışlayırıq. Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların sayına gəldikdə isə, bu statistika hər il dəyişir. Hazırda bu statusda olan şəxslərin sayı rəsmən açıqlanmayıb. Çox güman ki, yaxın günlərdə onların sayı açıqlanacaq. Onda bəlli olacaq ki, nə qədər əlilliyi olan şəxs bundan faydalanacaq".**

***Vidadi ORDAHALLI***

# Dağlıq Qarabağda pandemiya kabusu - taleyin ümidinə buraxılmış sakinlər mərkəzi yolu bağladı

**Dünyanı cənginə alan koronavirus epidemiyası işğalçı ölkə Ermənistanı çökdürüb. Panika və vahiməyə qapanan Ermənistan əhalisi çıxış yolu axtarsa da, görünən mənzərə odur ki, günü-gündən aclıq, səfalət içində boğulan ermənilər etiraz əlaməti olaraq müxtəlif vasitələrə əl atırlar. Onlar ölkənin baş naziri Paşinyandan dəstək, kömək istəyirlər.**



*Koronavirusa yoluxan ermənilərin çoxu işğal altındakı torpaqlarımızda yaşayanlardır...*

Ölkəsinin ölüm və ya olum arasında olmasına baxmayaraq, COVİD-19 virusundan canını qurtarmaq üçün Paşinyan öz ailə üzvləri ilə birlikdə Göyçə gölü ətrafındakı malikənələrin birinə daşınıb. İrəvan da daxil olmaqla, Ermənistanın iri şəhərlərində, o cümlədən bölgələrdə market və mağazalarda ərzaq qıtlığı hiss olunur. Hətta bir çox ehtiyat ərzaq anbarlarında un məmulatları qurtarıb. Erməni KİV-dən əldə olunan son məlumata görə, Ermənistanda virusa yoluxanların sayı 2300-ə çatıb. Bu isə MDB ölkələri arasında ən yüksək göstərici hesab edilir. Ancaq Ermənistan hökuməti vəziyyətlə bağlı heç bir qabaqlayıcı tədbir görə bilmir. İqtisadçı-ekspertlərin sözlərinə görə, pandemiyaya qarşı mübarizəyə büdcə xərcləri imkan vermir. Büdcədə maliyyə vəsaiti o qədər azalıb ki, dövlət təqaüdçülərə vəsaitlərini hissə-hissə ödəyir. Dövlət büdcəsindən maliyyələşən bir çox qurumlar, o cümlədən hərbçilər son üç ayın maaşını hələ də tam ala bilməyib. Ən acınacaqlı vəziyyət isə Ermənistanın işğal altında saxladığı Azərbaycanın Dağlıq Qarabağ regionunda hökm sürür. Belə ki, koronavirisin tüğyan etdiyi bir zamanda Dağlıq Qarabağ regionunda 1200 nəfərin yoluxması Xankəndidə vəziyyəti həddindən artıq gərgindirib. Çıxılmaz vəziyyətdə qalan sakinlər kütləvi etirazlara başlayıblar. Xankəndidəki bu etirazlara bölgənin digər rayonlarının sakinləri də qoşulub. Polis işçiləri hiddətlənmiş etirazçı kütlə ilə toqquşmadan ehtiyat edir.

Xankəndinin mərkəzi meydanına toplaşaraq mərkəzi yolu bağlayan narazı çılğın kütlə separatçı rejimin "daxili işlər naziri"ni maşından endirərək onun ünvanına təhqiramiz ifadələr işlədib.

Xankəndidə ictimai-siyasi durum getdikcə mürəkkəbləşir. Bölgədə bu virusa qarşı qabaqlayıcı tədbirlər görmək üçün tibbi ləvazimatların, test labaratoriyalarının və vaksinlərin olmaması əhalinin hiddətinə səbəb olub. Xəstəxanaların bərbad vəziyyətdə olması və tibbi standartlara cavab verməməsi isə vəziyyəti daha da kəskinləşdirib. Xankəndidə market və mağazalarda ərzaq məhsullarının qiymətində ciddi şəkildə - 40-50% bahalaşma qeydə alınıb. Un məhsullarında isə qiymət artımı 70-80% təşkil edir. Xankəndinin mağazalarında 100 drama satılan çörək bu həftə 180-200 drama qədər bahalaşıb. Bu da, istər-istəməz, acyalavac olan bölgə əhalisinin səbr kasasını daşdırıb. Bölgədə ümumi mənzərə həddindən artıq mürəkkəbləşərək yüksək həddə çatıb. Sakinlər təcili olaraq martın 31-də separatçı rejimin idarə etdiyi saxta qurumda keçirilmiş "prezident seçkilərinin" nəticələrinin ləğv olunmasını, eyni zamanda hərbi xunta rejiminin başçısı Bako Saakyanın, "müdafiə naziri" Cəlal Arutunyanın və "daxili işlər naziri" Levon Mnasakanyanın istefasını tələb edirlər. Bununla yanaşı, narazı kütlə bu yaxınlarda polislə toqquşmalar zamanı saxlanılan 30-a yaxın dinc sakinin qeyd-şərtsiz, dərhal sərbəst buraxılmasını tələb edib.

Etirazçıların fəal üzvlərinin dedikləri: "Biz bu yaxınlarda saxlanılan dinc sakinlərin qeyd-şərtsiz sərbəst buraxılmasını və dərhal yenidən növbədənkənar seçkilərin keçirilməsini, o cümlədən "prezident" Bako Saakyanın, "daxili işlər naziri" Levon Mnasakanyanın və "müdafiə naziri" Cəlal Arutunyanın istefasını tələb edirik. Bununla yanaşı, martın 31-də keçirilmiş seçkilərin nəticələrinin ləğv olunmasını və havadarlarının siyasi fəaliyyəti ilə özünü prezident elan edən Ara Arutunyana bildirmək istəyirik ki, namizdəliyini geri götürsün. Əks təqdirdə onun gələcək aqibəti sual altında olacaq. Sizlər bu bölgəni fəlakətə, uçuruma aparırsınız. Biz qarşıdurma, müharibə istəmirik. Biz sülh içində yaşamaq istəyirik və bizim övladlarımız ölmək istəmir. Biz sabitliyin, sülhün tərəfdarıyıq. Bəzi rüşvətxor talançılar bölgənin gələcəyini yox, ancaq özlərini və yaxın ətraflarının ciblərini güdürlər. Biz etirazçılar bu rejimin özbaşınalıqlarına qarşı çıxıb yox deyirik. Təhlükəsizliyi sual altında qoyursunuz. Dünyanı cənginə alan koronavirus epidemiyasına Qarabağ sakinləri də yoluxub. Hətta hərbi hissələrdə bu virusa yoluxma halları sürətlə yayılmaqdadır. Ancaq təəssüflər olsun ki, başda Bako Saakyan olmaqla aidiyyəti qurumların rəhbərlərindən heç kəs bununla maraqlanmır. Sanki bölgədə bunlar sakinləri yox, ancaq öz kreslolarını qorumağın hayına düşüblər. Vəziyyət o həddə çatıb ki, bu virusa yoluxan xəstələrin mülaicəsi üçün nə tibbi ləvazimat, nə də ki, normal şərait var.

Onların bir çoxunu İrəvana daşıyırlar. Son 30 ildə Xankəndi şəhər xəstəxanasında yenidənqurma təmir işləri aparılmayıb.

Xəstəxananın palataları biabırçı vəziyyətdədir. Biz etirazçıların tələbləri yerinə yetirilməyənə qədər mərkəzi yol bağlı qalacaq və daha qətiyyətli sərt addımlara əl atacağıq. Polislərə də bildirmək istəyirəm ki, bir daha toqquşmalara gedib təxribat yaratmasınlar. Biz sona qədər mübarizəmisi davam etdirəcəyik. Ya da ki, bu kütlənin hamısını həbs edib polis bölmələrinə aparsınlar".

Separatçı rejim başçılarının hadisə yerinə xeyli sayda daxili qoşunların və xüsusi təyinatlı polis qüvvələrini cəlb etmələrinə baxmayaraq, Xankəndidə vəziyyət gərgin olaraq qalır. Etirazçılar tələblərində israrlı olaraq mərkəzi yolu bağlı olaraq saxlayırlar.

***A.EYVAZOV***
**AMEA Qafqazşünaslıq İnstitutu Ermənişünaslıq şöbəsinin əməkdaşı**

# İsmayıllıda da 15 min maska buraxan fabrik açıldı, Bakı Tikiş Fabriki də əlavə olunsa - apteklərdə niyə qıtlıqdır...

**Ölkə əhalisinin koronavirusla əlaqədar tibbi maskaya olan ehtiyacının ödənilməsi üçün artıq konkret tədbirlər həyata keçirilməkdədir. Hazırkı vəziyyət maska və digər ləvazimatların yerli istehsal hesabına ödənilməsini diqtə edir.**

***Rəşad Həsənov:*** *"...maska istehsal edən müəssisələrin gücü isə, faktiki olaraq, mövcud şəraitdə tələbi ödəmək səviyyəsində deyil"*




*"600 min, 1 milyon tələbin qarşısında 15 min çox kiçik rəqəmdir"*

Fakt budur ki, ölkə apteklərində ən böyük qıtlıq maska satışı ilə bağlıdır. Ölkədə mövcud olan maska qıtlığının aradan qaldırılması üçün Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsində artıq maska istehsalına başlanıb. Bundan başqa, İsmayıllı rayonunda da maska istehsalı həyata keçirilir.

İsmayıllı Rayon İcra Hakimiyyəti başçısı Nahid Bağırov özünün şəxsi "Facebook" səhifəsində maska istehsalına dair paylaşım edib. "İsmayıllı rayonunda yeni növ koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində gündə 15 min tibbi maska tikilir. Maska istehsalı 2013-ci ildə möhtərəm Prezident İlham Əliyevin iştirakı ilə açılışı baş tutmuş İsmayıllı Tikiş Fabrikində həyata keçirilir.

Fabrikdə maska istehsalı aprelin 4-dən, Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə başlayıb və müəssisə gücləndirilmiş iş rejimində növbə ilə gündə 10 saat işləyir. Tikiş prosesinə 50-ə yaxın işçi quvvəsi cəlb olunub.

İstehsal prosesində istifadə olunan parçanın tərkibi 100 faiz pambıqdan ibarətdir və sterilizəyə davamlı olduğuna görə tibbdə istifadəyə tam yararlıdır. Maskalar sterilizə olunduqdan sonra rayonun apteklərinə paylanır. Həmçinin, yaşıllaşdırma, təmizlik, kommunal xidmətlər sahələrində çalışan və aztəminatlı təbəqənin digər üzvlərinə təmənnasız təqdim olunur" - deyə N.Bağırov qeyd edib.

Başqa yerli tikiş evlərində də gün ərzində 150, 200 min ədəd maska tikildiyi haqqında informasiyalar mövcuddur. Yerli tikiş, tekstil fabriklərinin, tikiş evlərinin istehsal etdiyi maskalar apteklərə niyə çatmır?

Əvvəlcə onu bildirək ki, "Bakı Tekstil Fabriki" MMC-nin təsisçisi Səkinə Babayeva yeni açılışı olan tibbi maska istehsalı müəssisəsinə press-tur zamanı jurnalistlərə açıqlamasında bildirib ki, müəssisədə tələbata uyğun olaraq istehsalat mexanizmi qurulub: "Gələcəkdə ehtiyac olarsa, maska istehsalı üçün yeni xətlərin qurulmasına qərar verilə bilər".

S.Babayeva deyib ki, müəssisə koronavirus pandemiyası bitdikdən sonra da fəaliyyət göstərəcək.

Qeyd edək ki, "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi Sumqayıt Kimya Sənaye Parkının ərazisində müvafiq yerlə təmin edilib və ona Sənaye Parkının rezidenti statusu verilib. Tibbi maska istehsalı üçün Türkiyədən gətirilmiş müasir avadanlıq qısa müddətdə quraşdırılıb. Müəssisədə 30-dan çox yeni iş yeri yaradılıb. Müəssisədə İSO beynəlxalq standartlarına uyğun xammaldan istifadə olunmaqla birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal ediləcək. Maskalar qablaşdırıldıqdan sonra xüsusi avadanlıqla əlavə olaraq sterilləşdiriləcək. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq və ikinci mərhələdə istehsal həcmi 2 dəfə artırılaraq gündəlik istehsal 200-250 min tibbi maskaya çatdırılacaq. Müəssisənin məhsulları, ilkin olaraq, daxili bazarda tələbatı ödəməyə yönəldiləcək.

Azərbaycanda müxtəlif tikiş evləri və tekstil fabriklərində istehsal edilən maskaların sayının hələlik tələbatı ödəyəcək səviyyədə olmadığını deyən tanınmış iqtisadçı Rəşad Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, indiki halda tələbatı tam ödəmək mümkün deyil. "Əgər söhbət cari situasiyadan gedirsə, bildiyim qədər, artıq apteklərin mərhələli şəkildə maska ilə təmin olunması prosesinə başlanıb. Bir neçə gün əvvəl Sumqayıtda maska istehsalını həyata keçirən zavod açıldı və bu zavodun hazırda 120 min ədəd maska istehsal etmək gücündə olduğu deyilir, bu cür qiymətləndirilir. Bu müəssisə artıq iki gündür fəaliyyətə başlayıb. Digər maska istehsal edən müəssisələrin gücü isə, faktiki olaraq, mövcud şəraitdə tələbi ödəmək səviyyəsində deyil. Çünki müxtəlif qiymətləndirmələr var, bununla bağlı dəqiq statistika yoxdur. Bəzi hesablamalara görə, Azərbaycanda gündəlik 600 min, digər hesablamalara əsasən isə 1 milyon maska tələbatı yaranıb. Bu da təbii prosesdir ki, birdən-birə tələbin bu şəkildə sürətlə artması fonunda istehsalın buna uyğunlaşdırılması və tələbin qarşılanması qısa müddətdə mümkün deyil. Eyni zamanda, bu məhsulları idxal etmək də çox çətindir. Çünki hər bir ölkədə bənzər problem var və demək olar ki, idxal hər bir ölkə üçün məhdudlaşdırılıb. Bu cür şərtlər daxilində isə, təbii ki, satış bazarında qıtlıq müşahidə olunacaq. Amma bəzi tikiş müəssisələrinin öz istehsal gücü ilə bağlı açıqladıqları statistik göstəricilərlə bağlı hansısa fikir söyləmək çətindir. Görünən ümumi olaraq ondan ibarətdir ki, tələb ödənilmir. Amma bu müəssisələr nə qədər məhsul istehsal edir, bunu indiki halda demək çox çətindir".

İsmayıllı Tikiş Fabrikində gündəlik olaraq 15 min ədəd maska istehsal edilməsinə də şərh verən R.Həsənovun sözlərinə görə, tikiş fabrikinin bu göstəriciləri kifayət qədər azdır və tələbatı ödəmək gücündə deyil: "Bu 600 min, 1 milyon tələbin qarşısında 15 min çox kiçik rəqəmdir. İstehsal edilən 15 min maska ən yaxşı halda bir rayonun özünün daxili tələbatını ödəməyə yetə biləcək bir göstəricidir. Hətta hər kəs qaydalara riayət edib maskalardan istifadə etsə, buna çatmaya da bilər".

Müsahibimiz bildirdi ki, yeni açılan maska istehsal edən zavodda bu gün 120 min civarında maska istehsal olunursa, ikinci mərhələdə istehsal gücü artırılacaq və burada istehsal 200 minə çatdırılacaq. "Bu iki-üç gün bundan əvvəl açılan bir zavoddur və maska problemi isə uzun müddətdir, təxminən ay yarımdan çoxdur mövcuddur. Yəqin ki, bundan sonrakı dövrdə mərhələli şəkildə nisbətən təklif bolluğu yaranacaq" - deyə bildirən R.Həsənovdan yerli müəssisələrin istehsal etdikləri maskaların keyfiyyətini də soruşduq. Ekspert qeyd etdi ki, aidiyyəti qurumlar istehsal edilən məhsulların keyfiyyətini yoxlamalıdırlar: "Aidiyyəti qurumlar var ki, onlar bu istiqamətdə öz funksiyalarını həyata keçirməlidirlər, bu sahəyə nəzarət etməlidirlər.

Amma əsas məsələ ondan ibarətdir ki, faktiki olaraq, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən müəssisələr bazara maksimim daha yaxşı, keyfiyyətli məhsul təklif etməkdə maraqlı olmalıdırlar. Bu, rəqabət imkanı yaradır. Ancaq təəssüf ki, rəqabətə şəriat olmur və müəssisələr artıq tələb fonunda bazara məhsul buraxmağa başlayırlar. Belə bir şəraitdə keyfiyyətin aşağı düşməsi ehtimalı daha çoxdur. Təbii ki, dövlət qurumları da müvafiq funksiyalarını yerinə yetirərək bazara təklif oluna məhsulların keyfiyyətinə nəzarət etməlidirlər. Azərbaycanda istehsal olunan məhsulların keyfiyyətinə hər zaman şübhə olmuşdu. Yerli istehsalçılar da çalışmalıdırlar ki, mərhələli şəkildə insanlar qarşısında bu şübhəni aradan qaldırsınlar. Çünki uzunmüddətli hədəf yerli tələbatın yerli istehsal hesabına ödənilməsidirsə və dövlət də bu istiqamətdə müəyyən təşviq mexanizmləri hazırlayıbsa, sahibkarlar da öz imkanlarından daha səmərəli şəkildə istifadə etməlidirlər".

***İradə SARIYEVA***

# Koronavirusun yeni yayılma mənbələri üzə çıxır - küçə-baca atılmış maska və əlcəklərlə doludur

## Sənan Aşirov: "İstifadə olunmuş maska və əlcəyi yerə atan şəxs cəzalandırılmalıdır"

**Avropada, xüsusən İtaliya və İspaniyada yoluxma halları və ölüm faktları artan xətt üzrə inkişaf edəndə bu qitənin bir çox ölkəsində nisbi sakitlik hökm sürürdü. İndi isə koronavirus Avropanın çoxlu sayda ölkəsində tüğyan edir.**

*"Parça maskalarda virus 9 saat, metal səthlərdə isə 12 saat ərzində yaşaya bilir, bu cür materialların küçəyə atılması Bakı kimi küləkli şəhərdə xüsusi təhlükəlidir"*

Avropa ilə müqayisədə ABŞ-da yayılma və ölüm halları gec başlasa da, indi bu ölkə az qala koronavirus pandemiyasının əsarəti altındadır.

Azərbaycana gəlincə, bu virusa ilk yoluxma halı fevral ayının sonunda aşkarlansa da, xeyli müddət birrəqəmli artım sayı ilə müşayiət olunan vəziyyət son dövrlərdə ikirəqəmliyə keçib.

Məlumdur ki, koronavirus pandemiyası yayılandan bu yana həm dünyada, həm də ölkəmizdə vətəndaşlara maska, əlcək və digər tibbi vasitələrin istifadəsi zərurəti yarandı.

Ölkədə karantin rejimi elan edildiyi bir vaxtda maska və digər tibbi vasitələrə tələbatın çox olmasına baxmayaraq, küçələrdə yerə atılmış maska və əlcəklərə rast gəlmək mümkündür. Belə tullantıların artması ölkədə həm gigiyenik pozuntuya, həm də koronavirusun daha da yayılmasına şərait yaradır.

Məsələ ilə bağlı fikir bildirən tibb üzrə ekspert Sənan Aşirov qeyd etdi ki, istifadə olunmuş maska, əlcək və salfetləri selofan torbaya qoyub saxlamaq və qısa müddətdə zibil qutusuna atmaq lazımdır: "İstifadə olunub atılan tibbi vasitələrin hansının virus daşıyıb-daşımadığını bilə bilmərik.

Parça maskalarda virus 9 saat, metal səthlərdə isə 12 saat ərzində yaşaya bilir. Bu cür materialların küçəyə atılması Bakı kimi küləkli şəhərdə xüsusi təhlükəlidir. Əgər həmin tullantılarda virus varsa, bu, külək vasitəsilə də ətrafa yayıla bilər və insanlara nəfəs yolu ilə yoluxar.



**Ümumiyyətlə, belə şəxslərlə bağlı cərimələr tətbiq olunmalıdır. Təhlükəsizlik tədbirləri sərtləşdikcə, həmin şəxslərlə də bağlı ölçü götürüləcək".**

Həmsöhbətimiz onu da əlavə etdi ki, respiratorlar cəmi bir dəfə istifadə olunubsa, onu mütləq günəş şüaları altında və ya evin girişində saxlamaq lazımdır. Maskalar isə yanlarından açılıb bir yerdən asılmalıdır.

*Günel CƏLİLOVA*

# Koronavirusla mübarizə dövründə fiziki şəxslərin öz etdikləri yardımları geniş reklam etməsi doğrudurmu...

## İlqar Hüseynli: "Yaxşı olar ki, edilən yardımlarla bağlı ümumi bir təsəvvür formalaşdırılsın"

**Koronavirus pandemiyası ilə mübarizə çərçivəsində insanlarımız arasında nəcib təşəbbüslərə qoşulanlar da az deyil. Bəllidir ki, karantin rejiminin elan olunması əksər vətəndaşlarımızın iş yerlərinin bağlanması ilə nəticələnib. Onların arasında elələri var ki, günəmuzd çalışır.**




Belə olan təqdirdə, dövlətin ayıracağı yardımdan yararlanana kimi ailənin maddi durumu pisləşmiş olur. Bu səbəbdən də, bəzi imkanlı insanlar ehtiyacı olan ailələrə yardımlar edir. Təbiidir ki, belə nəcib əməllərin təşviqi lazımdır. Çünki başqaları da örnək götürüb yardımlaşa bilər. Amma təəssüflə qeyd etməliyik ki, bəzi fiziki şəxslər bundan özünüreklam məqsədilə istifadə edir. Məsələn, sosial şəbəkələrdə əlinə bir neçə zənbil alıb adamlara yardım etdiyini lentə aldıran, kimə ərzaq verdiyini bəh-bəhlə təqdim edənlərə də az rast gəlmirik. Ən acınacaqlısı budur ki, bəzən yardım edilənlərin şəhid ailələri olduğu bildirilir və bir zənbil ərzağa görə onları publikaya təqdim edirlər.

Bu əməlləri nə dərəcədə doğru saymaq olar?

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun özü mahiyyət etibarı ilə yaxşı ənənədir:"Söhbət ehtiyacı olanlara yardımların olunmasından gedir. Bu praktikadan dünyanın ən müxtəlif ölkələrində istifadə edirlər. Pandemiya dönəmində biz bu proseslərin daha qabarıq formada şahidi olduq. Bunu siyasi və şəxsi məqsədlərə çevirib reklam etmək doğru deyil. Hətta dinimizdə də deyilir ki, sağ əlin verdiyini sol əl bilməməlidir. Yaxşı olar ki, edilən yardımlarla bağlı ümumi bir təsəvvür formalaşdırılsın. Bu, yaxşı əməlin təşviqi baxımından önəmlidir. Ümumi anlamda alınan ərzaqların çeki paylaşıla bilər. Yoxsa kimə verildiyini çəkib göstərmək, həmin adamı utandırmaq deyil. Bu heç etik baxımdan da doğru deyil. Şəxsən mənim özüm də insanlara yardım edirəm, bunu paylaşmağa lüzum görmürəm. Bizim təşkilat sosial layihələr həyata keçirir. Hər zaman kiçik qruplara yardımlar etmişik. Heç vaxt yardımın kimə olunduğunu çəkib göstərməmişik. Xüsusilə də elə həssas təbəqələr var ki, onlardan burda sui-istifadə etmək olmaz. Söhbət şəhid, qazi ailələrindən gedir. Biz bu kateqoriya adamlara nə qədər yardım etsək azdır, onların borcundan çıxa bilmərik.

**Çünki onların övladları öz şirin canlarından bu Vətən üçün keçiblər. Bu gün bir torba ərzaqla onların qürurunu sındırmaq olmaz. Bəlkə də çoxlarının bu yardıma ehtiyacı yoxdur. Amma qapını döyüb gələn adamı da geri qaytaarmayacaq ki... Belə incə detallara fikir verilsə çox əla olar".**

*Məhəmmədəli QƏRİBLİ*

# Sosial şəbəkələrdə insanları ruhdan salan neqativ video-audio materiallar paylaşılır - xoş olmayan qara niyyətlər...

**Koronavirus pandemiyasının dünyada geniş vüsət alması müəyyən şarlatanların, qara qüvvələrin, insanlarda xof yaradan şəxslərin meydana çıxmasına səbəb olub. Son günlər sosial şəbəkələrdə "Qiyamət günü"nün yaxınlaşdığını (?) əks etdirən video-audio materialları yayılır. Bu azmış kimi, sözügedən videolar şəxsi mesaj qutularına da atılır.**




***Qiymət Məhərrəmli:*** *"Bu gün koronavirus pandemiyasını "Qiyamət günü" əlaməti kimi təqdim etməyin özü absurddur"*

***Hacı Təyyar Hüseynli:*** *"Din xadimləri sosial şəbəkələrdə yayılan bu təxribatların, bu platformada dini mövzuda yayılan yanlış, lakin panika yaradan, insanlara psixoloji yük olan, onlara stress yaşadan informasiyaların qarşısını almalı, maarifləndirici informasiyalar yaymalıdırlar"*

Bu videolarda qeyd edilir ki, guya pandemiyanın bütün dünyanı ağzına alması "Qiyamət günü"nün əlamətidir və tezliklə bütün bəşəriyyət məhv olacaq. "Dünyanın sonu" gəldiyini iddia etmək, bununla bağlı video-audio materillar hazırlamaq, o materialları böyük həvəslə sosial şəbəkələrdə yaymaq, "Facebook", "WhatsAppp" vasitəsilə daha çox insana çatdırmaq istəyi, birmənalı olaraq, xof yaratmağa, insanlarda neqativ əhval, qorxu ovqatı formalaşdırmağa xidmət edir.

"Qiyamət günü yaxınlaşır" iddiasını ortaya atanların nəyə əsaslanıb bu fikirləri bildirdiyini bilmirik, amma reallıq göstərir ki, deyilənlər cəfəngiyyatdan başqa bir şey deyil. Bu məzmunda video yayanların bir məqsədi var: psixoloji cəhətdən zəif olan insanları qorxutmaq, onlarda xof, təlaş yaratmaqdır.

Məlumdur ki, indiyə qədər bəşəriyyət saysız xəstəliyə yoluxmalarla sınağa çəkilib. Bu xəstəliklər kütləvi insan tələfatına səbəb olsa da, dünyanın sonunu gətirməyib, dünya insanı xəstəliklərə qalib gələrək yoluna davam edib.

Bu neqativ videoları yayanlar kimlərdir və onlar nəyə əsasən "Qiyamət günü yaxınlaşır", "Qiyamət günüdür" iddiasını irəli sürürlər?

Qeyd edək ki, Qiyamət - "Diriliş günü ( Din günü, Hökm günü) monoteist və ya təktanrılı dinlərdə və bir çox inancda olan, dünyanın sonunun gəlib bütün ölülərin diriləcək məşhər meydanında toplanacağına inanılan zaman, hesab günü, məşhər günü kimi xarakterizə edilir. Hətta müqəddəs Qurani-Kərimdə də onun əlamətləri qeyd edilib, amma onun zamanı bildirilməyib. Bu öz yerində. Amma söhbət insanlarda qorxu yaradan qüvvələrin naqis əməllərindən gedir.

Filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli hesab edir ki, bu, hansısa qüvvələrin məqsədlərinə qulluq edən bir iddiadır. "Qiyamət günü"nün yaxınlaşdığını deməyin özünün insanlarda böyük təlaş, qorxu yaratdığını deyən Q.Məhərrəmli bu əsassız videoların insanlara mənfi təsir göstərdiyini qeyd etdi. "Biz "Qiyamət günü"nün nə zaman baş verəcəyi haqqında heç nə deyə bilmərik. Amma bu gün kimlərinsə meydana çıxıb "Qiyamət günü"nün gəldiyini, yaxud yaxın vaxtlarda gələcəyini iddia etməsi absurddur. Bir qrup insan pandemiya ilə əlaqədar olaraq meydana çıxır və "Qiyamət günü yetişib" (?) deyə haray çəkir, videolar, audiomateriallar yayır. İnsanları təlaşa, qorxuya salmağın özü böyük mənəvi cinayətdir. Bilirsiniz ki, bəşər tarixində saysız növdə infeksiya, xəstəliklər baş verib, bəlkə onlar arasında yeni növ koronavirus pandemiyasından da dəhşətli xəstəliklər olub, amma o epidemiyaların, infeksiyaların heç biri bəşəriyyətin sonunu gətirməyib, bəşəriyyət yoluna davam edib. Hesab edirəm ki, COVID-19 virusu da bəşəriyyəti məhv edə bilməz. Çünki ölkələrdə tədbirlər görülür, vaksin axtarılır, insanlar, dövlətlər bu virusa qarşı müqavimət göstərirlər. Bu gün koronavirus pandemiyasını "Qiyamət günü" əlaməti kimi təqdim etməyin özü absurddur" - deyə Q.Məhərrəmli bildirdi.

Tanınmış ilahiyyatçı Hacı Təyyar Hüseynlinin fikrincə də hazırda dünyada pandemiya elan edilən koronavirus zaman-zaman səbəbli və müəmmalı şəraitdə meydana gəlib, müəyyən sayda insan itkisi ilə sona yetib: "Etiraf edək ki, insanların pandemiyadan kütləvi həlak olması insanlar arasında panika yaradıb. Mən bunu onunla əlaqələndirmək istəyirəm ki, dünyada olan bütün insanlar yaşamaq, xoşbəxt olmaq istəyirlər. İnsanların sağlamlığına yönələn iyrənc iqtisadi-siyasi oyunlar nəticəsində çıxılmaz vəziyyətə düşürlər. Bununla da onlar müəyyən qüvvələrə yönəlirlər. Bu, bəzi insanların savadsız, maarifsiz olması ilə bağlıdır. Deyirlər bir cahil quyuya daş atdı, yüz aqil, ağıllı çıxara bilmədi. Yəni insanlarda bu xofun yaranma səbəblərinin ilkin əsasları var. Bu, cəhalətdən irəli gəlmir, bu, reallığın gətirdiyi rəzalətdən irəli gəlir. Digər tərəfdən, "Qiyamət günü" barədə müqəddəs Qurani-Kərimdə verilən proqnozlar çox ciddi, həddindən artıq mürəkkəbdir. Orada əks olunanlar sırf tərcüməsindən başa düşülən informasiyalar deyil. Vaxtilə 25 il praqmatik, sistemli dini təhsil alırdılar. İndi 25 ay, 25 gün, bilmirəm, bəlkə də 25 dəqiqəlik hardansa, kimsə Qurani-Kərimdə Qiyamətlə bağlı olanları oxuyub. Hətta bilinmir ki, Quranda bu deyilənlər "Qiyamət günü" ilə bağlıdır, yoxsa başqa bir məsələ ilə. "Qiyamət günü" ilə bağlı hətta bilənlərin belə qətiyyətlə, cürətli fikir bildirməyə haqqı yoxdur ki, götürüb onu mövcud proseslərlə əlaqələndirsin.

Tutalım, hava proqnozu verirlər. Deyək ki, müəyyən məsələlərlə əlaqələndirib hava şəraitinin necə olacağını deyirlər. Bu, kainatda baş verən elmi insanlara izn verildiyi qədər öyrənə biləcəkləridir. Amma kainatın və ilahi yaradılışın nizamında baş verə biləcəklərin müəyyən bir az faizi haqqında dəqiq məlumat əldə etmək olar. Hətta bu barədə Quranda da var ki, sizə qədərindən artıq öyrənməyə izn vermədik. Bu belə. Qaldı ki, indiki şəraitdə sosial şəbəkələrdə yayılan məlumatlar sadaladığım səbəblərdəndir. Bilirsiniz, belə məsələlərdə söz sahibi olan və qətiyyətli fikir bildirməyi bacaran din xadimləri meydanda olmalıdırlar. Din xadimləri sosial şəbəkələrdə yayılan bu təxribatların, bu platformada dini mövzuda yayılan yanlış, lakin panika yaradan, insanlara psixoloji yük olan, onlara stress yaşadan informasiyaların qarşısını almalı, maarifləndirici informasiyalar yaymalıdırlar. Bir ilahiyyatçı kimi ədalətli olmaq mənim həyat prinsipimdir. Ədalətli olmaq yalnız din xadiminə, jurnalistə, ədliyyə işçilərinə deyil, bütün sahələrdə təmsil olunan, rəhbərdən rəiyyətə qədər hər kəsə lazımdır. Ədalətin içində də ədalətli danışmaq var. Bu mövzuda ədalətlə danışsaq deyərdim ki, birinci, bizim əqidəmizdə bəşəriyyətin ədalətlə dolacağı bir böyük zaman var. Sabah mövludu olan, gözlərə görünməyən bir imamın Yer planetini ədalətlə dolduracağı ilə bağlı bir prinsip var".

**O qeyd etdi ki, mütləq bəşəriyyətdə, ədalətsiz dünyada ilahi ədalət bərqərar olacaq, gözlərə görünməyən, adı Peyğəmbərimizin adına uyğun olan on ikinci imam Mehdi Sahibi Zaman Qiyamətə bir gün qalmış olsa belə kainata gələcək və bəşəriyyəti ədalətlə dolduracaq. H.T.Hüseynlinin sözlərinə görə, koronavirus epidemiyası da sıradan çıxıb gedəcək. "Hər birimiz Azərbaycan xalqına, dövlətinə səmimi, sədaqətli və ədalətli xidmət etməliyik" - deyə ilahiyyatçı bildirdi.**

***İradə SARIYEVA***

№ 53 (4184) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

9 APREL 2020-ci il

www.baki-xeber.com

# "Pandemik dron" koronavirusa yoluxan insanları havadan müəyyən edəcək



**Mühəndislər COVID-19 simptomları olan insanları müəyyən edəcək pilotsuz aparat üzərində işləyirlər.**

"Ted.az" bildirir ki, avstraliyalı mütəxəssislər kütlənin içində COVID-19 simptomları olan insanları effektiv şəkildə müəyyənləşdirə biləcək pilotsuz uçuş avadanlığı hazırladıqlarını elan ediblər.

Məsələ burasındadır ki, kütləvi yoxlamalar vaxt və çox sayda tibb heyəti tələb edir. Buna görə də həmin problemin həlli texnologiyaya bağlı olmalıdır. Cənubi Avstraliya Universiteti və Kanadanın "Draganfly" şirkətinin mühəndisləri koronavirusun potensial daşıyıcılarının axtarışını daha mərkəzləşdirilmiş şəkildə aparmağa, məsələyə yüksək texnoloji tərəfdən yanaşmağa qərar veriblər və nəticədə xüsusi sensorlar, həmçinin, kompüter görmə sistemi ilə təchiz olunmuş dronların üzərində işləyirlər. Mütəxəssislərin fikrincə, operatorun nəzarəti altında yarımuxtar rejimdə işləyən "pandemik dron" izdiham içərisində 10 m-ə qədər məsafədən virusun ateş, öskürək, asqırma, təngnəfəslik və sürətlənmiş ürək döyüntüsü kimi tipik simptomlara malik insanları müəyyən edəcək.

Güman edilir ki, "pandemik dron" həm küçələrdə, geniş ofislərdə, hava limanlarında, qocalar evlərində, kruiz laynerlərində və digər izdihamlı yerlərdə simptomatik kütləvi müayinənin aparılmasını xeyli asanlaşdıracaq.

"Bizim təklif etdiyimiz texnologiya yoluxmuş insanların hamısını tamamilə aşkarlaya bilməz, ancaq COVID-19-a tutulanların müəyyən ictimai məkanda və ya bir qrup insanda olub-olmadığını kifayət qədər etibarlı şəkildə dəqiqləşdirə bilər", - deyə layihənin müəllifi Yavan Çalem vurğulayıb.

## Koronavirusun mənşəyi qeyri-adidir

**Dünyada tüğyan edən koronavirusun mənşəyi hələ də tam məlum deyil. "Milli.Az" xəbər verir ki, bunu çexiyalı genetik və virusoloq Sonya Pekova deyib. "Bu virus özünü qeyri-adi aparır.**



Əlbəttə, dünyada insana yoluxan müəyyən sayda virus var. Adətən əlamətlər əsasında biz insanın hansı virusa yoluxduğu bilirik. Məsələn, bir növ virus diareya ilə müşahidə edilir, digəri səpki ilə və sair. Lakin koronavirus bunların heç birinə oxşamır. Sanki bu, yeni bir xəstəlik növüdür", - deyə mütəxəssis qeyd edib. Qeyd edək ki, dünyada bu virusdan ölənləri sayı 74 807 nəfərə çatıb.

## Bu paltarlar xərçəng yaradır...

**Paltarlara vurulan kimyəvi maddələr sağlamlığımız üçün təhlükəlidir. "Milli.Az" xəbər verir ki, geyimlərə vurulan bəzi kimyəvi maddələrin siçanlarda xərçəng yaratdığı məlum olub.**

Bu kimyəvi maddələrlə məşğul olan insanlar isə xərçəng xəstəliyinə tutulur. Geyimlərin qırışmaması üçün istifadə edilən formaldehit maddəsi dəridə allergik reaksiyalara səbəb olur.

Sintetik geyimlərdə olan hidrofil maddəsi bir sıra ciddi xəstəliklərlə yanaşı, əlvan dəmrov və göbələk kimi xəstəliklərə də yol aça bilər.

Mütəxəssislər sağlamlığımızı qorumaq üçün pambıq, yun, ipək, kəşmir, qanovuz, dəvə tükü, kətan kimi parçalardan tikilən geyimlərə daha çox üstünlük verməmizi məsləhət görürlər.

## Koronavirus alim ixtirasıdır?

**Qərb mediası açıq şəkildə Çini yalnız "koronavirusla kifayət qədər mübarizə aparmamaqda" deyil, bioloji silahların yaradılmasında ittiham etməyə başlayıb. Ekspertlərin fikrincə, Qərbin bu cür açıqlamaları Çinə qarşı sanksiyalar üçün zəmin hazırlayır.**

"Milli.Az" xəbər verir ki, bu barədə "DailyMail" Britaniyanın anonim rəsmilərinə və kəşfiyyat agentlərinə istinadən məlumat yayıb. Qəzetin etibarlı mənbədən aldığı kəşfiyyat məlumatlarına əsasən, virusun heyvandan insana ötürülməsi onun Uhandakı bir laboratoriyada hazırlanması versiyasını istisna etmir. Həqiqətən də pandemiyanın mərkəzinə çevrilən şəhərdə patogen mikrobloranı tədqiq edən Uhan Virusologiya İnstitutu var. Təhlükəli xəstəliklər, məsələn, yarasalar üzərində tədqiqatlar aparan belə az tanınmış bir qurum - Uhan Xəstəliklərə Nəzarət Mərkəzi də fəaliyyət göstərir. "Daily Mail"ın digər iddiasına görə, "ilk xəstə" Uhan Virusologiya İnstitutunun təcrübəsi zamanı təsadüfən yoluxmuş bir işçisi - Huan Yanlin olub. Lakin İnstitut özü bu adamın 2015-ci ildə işdən çıxdığını iddia edir. Bununla yanaşı, 2020-ci ilin 28 yanvar tarixində dünyanın ən böyük nanotexnologiya mütəxəssislərindən biri, Harvard Universitetinin Kimya və Biologiya kafedrasının müdiri, doktor Çarlz Liber ABŞ-da həbs edilib. FTB onu Çinin dünyanın hər yerindən elm adamlarını cəlb etdiyi "Minlərlə İstedad" beynəlxalq proqramında iştirak etməkdə günahlandırır.

Təqsirləndirilməsinin səbəblərindən biri də əvvəllər Liberin rəsmi açıqlamalarda bu proqramda iştirak etməsini və ÇXR ilə əlaqələrinin olmasını rədd etməsidir. Lakin ABŞ prokurorları müəyyən edib ki, 2012-ci ildə alim Uhan Texnologiya Universiteti ilə müqavilə bağlayıb. Müqavilədə Liberin 1 milyon dollar məbləğində böyük maaş və tədqiqat qrantı aldığı iddia olunur. Məbləğin bir hissəsi adətən reaktiv və digər xərclərin alınmasına, digər hissəsi isə alimin öz cibinə gedib. Bununla birlikdə, Çarlz Liberin Uhan virusoloqlarının tədqiqatlarında hipotetik iştirakının yalnız bir versiya və olduqca spekulyativ xəbərlər olduğunu söyləyən ekspertlər də az deyil.





**Qoç** - Vacib olmayan xərclərdən, planlaşdırılmamış bazarlıqlardan çəkinin. Bu gün pulunuzu, mülkiyyətinizi qorumağınız, vacib sənədlər və dəyərli əşyaları gözdən qoymamaq tövsiyə olunur.



**Buğa** - Şikayətlənmək üçün səbəb azdır. Hər şey gözlədiyiniz kimi, hətta ondan da yaxşı olacaq. Başladığınız işlər nə qədər cəsarətlidirsə, uğur ehtimalı da bir o qədər yüksəkdir. Razılıq verməyin məsləhət olduğu cəlbedici təkliflər alacaqsınız.



**Əkizlər** - Bu gün sizə heç vaxt ümid edə bilmədiyiniz sürprizlər gətirəcək. Hadisələr neinki əlverişli, hətta həddindən artıq uğurlu inkişaf edəcək. Şəraitdən itifadə edin, vaxtınızı boş yerə itirməyin.



**Xərçəng** - Əgər bu gün yeni işə başlayacaqsınızsa, detallara qarşı həddsiz dərəcədə ehtiyatlı və diqqətli, hesab işlərində isə səliqəli olun. Unutmayın: bu gün ən yaxşı fikir də ehtiyatsız icra nəticəsində "ölə" bilər.



**Şir** - Əlverişsiz tendensiyaların təsiri hələ də çox güclüdür və onlarla mübarizə aparmaq olduqca çətindir. O, sizə təsəlli vermək üçün xoş sözlər tapacaq, imkan düşdüyündə isə yardım əlini uzadacaq.



**Qız** - Tamamilə yeni işlərə girişmək, eksperimentlər etmək, istedad və qabiliyyətinizi tətbiq etmək üçün gözlənilməz işlər axtarmaq olar. Hər tərəfdən komplimentlər səslənəcək, sevgi etirafları, evlilik təklifləri istisna deyil.



**Tərəzi** - Başladığınız işləri başa çatdırmaq üçün münasib gündür. Yeni layihələrə başlamağa tələsməyin: əslində, onlar sizin və müttəfiqlərinizin hesab etdikləri qədər perspektivli deyillər. Bazarlıq etmək olar.



**Əqrəb** - Həyat potensialınız aşağıdır. Yaxşı ideya çatışmazlığı da bununla izah olunur. Buna görə təəssüflənməyin: bir qədər keçəcək və fantaziyanız yenidən tam gücü ilə işləməyə başlayacaq.



**Oxatan** - Bu gün yalançı ümidlər, yersiz gözləntilər gətirəcək. Siz reallığın gözünün içinə baxmaq əvəzinə, həvəslə illüziyalarınızı qoruyursunuz. Xoşunuza gəlməsə də, məsləhətlərə qulaq asın.



**Oğlaq** - Əvvəlcə elə görünə bilər ki, belə yanaşmanın yeri var, çünki xeyli müsbət emosiya verir. Lakin bu gün həll olunmayan vəzifələrə sonralar yenidən qayıtmaq lazım gələcək - onda təəssüflənəcəksiniz ki, niyə bu gün çalışqanlıq nümayiş etdirməmisiniz.



**Dolça** - Daha bir uğurlu gün. Bu gün işləmək həzzdir. Sizin üçün maraqlı olan işlə məşğul olacaq və buna görə yüksək mükafat alacaqsınız. Heç kim sizinlə mübahisəyə cəsarət etmir: aydındır ki, sizi fikrinizdən döndərmək mümkün deyil.



**Balıqlar** - Gücünüzü toplamalısınız: bu gün hansısa nəticələrə nail olmaq üçün işləməli olacaqsınız. Deyəsən, kömək vəd edən insanlar fikirlərini dəyişiblər. Ona görə də yalnız özünüzə bel bağlamalısınız.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Sahildə bağlama tapdı, açanda gözlərinə inanmadı...

**Mayami şəhəri sahillərində axtarış aparan şəxs qayanın yaxınlığından bağlama tapıb.**



"Milli.Az" xəbər verir ki, gənc bu bağlamanı açandan sonra gözlərinə inanmayıb. O, bağlamanın içərisində 110 min dolların olduğunu görüb. Təəccübünü gizlədə bilməyən şəxs hadisə barədə sosial mediada açıqlama yayıb. Qeyd edək ki, o bundan əvvəl sahildə mobil telefon, üzük, boyunbağı və digər əşyalar tapdığını bildirib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.